RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 137 (9304) 5 İYUL 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# GÜCLÜ SİYASİ İRADƏ

Bu gün bizə qarşı aparılan çirkin kampaniyanın heç bir əhəmiyyəti yoxdur və olmayacaq. Bizim iradəmizə heç kim təsir edə bilməz. Əgər Vətən müharibəsi dövründə bizim iradəmizə heç kim təsir edə bilmədisə, bu gün, təbii ki, heç kim təsir edə bilməz.

**İlham ƏLİYEV**

## Azərbaycanı qüdrətli və sözükeçər edən də budur

*Ulu Öndərin Azərbaycan xalqına məşhur və tarixi müraciətində İlham Əliyevlə bağlı maraqlı bir fikir də var:*

*"O, dünya siyasətini dərindən bilir!"*

*Artıq bütün dünya buna şahiddir!*

**Bəli, Heydər Əliyev siyasi kursunu ləyaqətlə davam etdirən Prezident İlham Əliyev yüksək biliyə, analitik intellektə, qətiyyət və prinsipiallığa, möhkəm və dönməz siyasi iradəyə malik xarizmatik liderdir!**

İlham Əliyev 2003-cü ilin prezident seçkilərindən dərhal sonra bir dövlət başçısı kimi çətin sınağa çəkildi.

O ərəfədə baş nazir kimi prezident səlahiyyətlərini də icra edirdi.

Daxili və xarici xəyanətkarlar ölkədə yenidən xaos və anarxiya yaratmaq, hakimiyyəti zəbt etmək üçün xaricdəki ağalarının göstərişi ilə küçəyə çıxdılar.

İnsanlara çağırışlar etdilər, avtobusların qarşısını kəsərək sərnişinləri bayıra çıxarmaqla öz sıralarına qoşulmağa məcbur etməyə çalışdılar, "Azadlıq" meydanını "ələ keçirdilər", tribunaya qalxdılar.

Lakin başı bəlalar görmüş Azərbaycan xalqı beləl期 qoşulmadı!

**İlham Əliyev isə qətiyyəti və güclü siyasi iradəsi sayəsində hakimiyyət hərislərini və bu yolda hər xəyanətə hazır olanları yerlərində oturtdu!**

*Azərbaycan xalqı da, bütün dünya da gördü ki, hakimiyyət sükanı möhkəm və etibarlı əllərdədir!*

❖❖❖

**Cənab İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən - Prezident kimi and içəndə işğala son qoyacağını, ölkənin ərazi bütövlüyünü bərpa edəcəyini Azərbaycan xalqına vəd, bütün dünyaya isə bəyan etdi!**

*Bunun üçün zəruri olan bütün addımları atdı, etibarlı təməl yaratdı!*

→ 3

# "Azərbaycan ilə ABŞ arasında əlaqələr bir sıra sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib"



## Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Cozef Baydenə

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda dost Amerika xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələr dostluq və əməkdaşlıq zəminində dinamik inkişaf edərək bir sıra sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Qlobal çağırışlara, beynəlxalq terrorizmə qarşı mübarizə, təhlükəsizlik məsələlərində fəal və səmərəli birgə işimiz, iqtisadi sahədə geniş spektrdə qarşılıqlı fəaliyyətimiz ikitərəfli münasibətlərimizi səciyyələndirən başlıca amillərdəndir.

Enerji sahəsindəki əhəmiyyətli əməkdaşlığımız məmnunluq doğurur. Birləşmiş Ştatlar Azərbaycanın enerji strategiyasını bütün mərhələlərdə qətiyyətlə və davamlı şəkildə dəstəkləmişdir. Biz enerji təhlükəsizliyinin təmin olunmasında ölkələrimizin sıx əməkdaşlığını, reallaşdırdığımız irimiqyaslı transmilli layihələrdə ABŞ-nin hərtərəfli dəstəyini xüsusi dəyərləndiririk.

Hazırda Cənubi Qafqazda davamlı sülhün bərqərar olması üçün əlverişli şərait formalaşmışdır. Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında, beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh müqaviləsinin hazırlanması prosesində ABŞ-nin səylərini yüksək qiymətləndiririk.

Hörmətli cənab Prezident!

Bu gün biz bir sıra sahələrdə qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq ABŞ ilə əlaqələrimizi daha da genişləndirmək əzmindəyik. Əminəm ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan-ABŞ tərəfdaşlığının inkişafı və möhkəmləndirilməsi yolunda birgə səylərimizi dövlətlərimizin maraqları və xalqlarımızın mənafeyi naminə bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Fürsətdən istifadə edərək bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Amerika Birləşmiş Ştatlarının dost xalqına daim rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 03 iyul 2023-cü il*

## Zərdab rayonunun Ağabağı-Kəndəbil-Şıxbağı-Nəzəralılı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Dörd min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Ağabağı-Kəndəbil-Şıxbağı-Nəzəralılı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 6,4 milyon (altı milyon dörd yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 04 iyul 2023-cü il*

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Konstitusiya Məhkəməsinin hörmətli hakimləri və əməkdaşları!

Sizi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş "Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafı" mövzusunda beynəlxalq konfransın açılışı ilə əlaqədar səmimi-qəlbdən salamlayıram.

Konstitusiya Məhkəməsinin hazırkı yubileyi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinin qeyd olunduğu dövrə təsadüf edir və bu, dərin simvolik məna kəsb edir. Məhz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında Konstitusiya Məhkəməsinin əsas səlahiyyətləri, bu təsisatın dövlət hakimiyyəti orqanları sistemində mühüm yeri və rolu müəyyən olunmuşdur.

Ötən illər ərzində Konstitusiya Məhkəməsi səmərəli fəaliyyəti ilə və qəbul etdiyi qərarlarla Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə, insan hüquq və azadlıqlarının müdafiəsinə, milli qanunvericiliyin, dinamik dəyişən ictimai münasibətlərə uyğun olaraq, Konstitusiyanın müddəaları nəzərə alınmaqla təkmilləşdirilməsinə, cəmiyyətdə hüquq mədəniyyətinin və müxtəlif sahələrdə hüququn tətbiqi təcrübəsinin daha da inkişaf etməsinə dəyərli töhfə vermişdir.

Əminəm ki, Konstitusiya Məhkəməsi bundan sonra da ölkəmizdə hüquqi dövlət və konstitusionalizm ideya və prinsiplərinin həyata keçirilməsində səylərini əsirgəməyəcəkdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimlərini və əməkdaşlarını 25 illik yubiley münasibətilə təbrik edir, konfransın işinə müvəffəqiyyətlər arzu edirəm!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 03 iyul 2023-cü il*

## Bolluq həm də ucuzluqdur

Fermerlər keçən ilin payızında 57 min 337 hektara buğda, 8 min 200 hektara arpa əkmişdilər. Payızda, qışda düşən yağış, qar əkinlərin muradını verdi. Dağlıq ərazilərin əkinlərinə bu daha çox xeyir verdi. Yazda rayonun şərqindəki aran yerlərinə vaxtında yağıntı düşmədiyindən dağlıq zonaya nisbətən məhsuldarlıq az oldu. Buna baxmayaraq, məhsul hər halda keçən ildəkindən çoxdur.

Bolluq həm də ucuzluq deməkdir. Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar bəzi bədgümanlar hesab edirdilər ki, ölkəmizdə taxıl qıtlığı yaranacaq, taxılın və çörəyin qiyməti artacaq. Bir çox işbazlar keçən ilin payızında yüz tonlarla taxıl alıb anbarlara yığdılar ki, baha qiymətə satıb külli miqdarda qazanc əldə edəcəklər. Lakin onların istəkləri ürəklərində qaldı. Dövlətin həyata keçirdiyi tədbirlər nəticəsində ölkədə taxıl istehsalı artdı.

→ 5



## Fransadakı etirazlar Avropa miqyasında təhlükə yaradır

→ 7

# Beynəlxalq konfransın iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunan "Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafı" mövzusunda beynəlxalq konfransın iştirakçıları iyulun 4-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül və əklil qoyublar.

AZƏRTAC xəbər verir ki, sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının da məzarları üzərinə tər çiçəklər düzüblər.





# Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib

İyulun 4-də Bakıda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş "Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafı" mövzusunda beynəlxalq konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, konfransda Azərbaycan Respublikası Milli Məclisinin, Ədliyyə Nazirliyinin, Ali Məhkəmənin, Daxili İşlər Nazirliyinin, Baş Prokurorluğun, İnsan hüquqları üzrə müvəkkilin (ombudsman), Vəkillər Kollegiyasının, Bakı Dövlət Universitetinin rəhbərləri və nümayəndələri, habelə bir çox məhkəmələrin sədrləri və hakimləri, tanınmış alimlər, hüquq ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Həmçinin tədbirdə iştirak etmək üçün Türkiyə, Qazaxıstan, Özbəkistan, Rusiya, Albaniya, Belarus, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, İndoneziya, Macarıstan, Serbiya və Tailand Konstitusiya məhkəmələrinin nümayəndə heyətləri Bakı şəhərinə gəliblər.

Konfransda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Beynəlxalq konfransı açıq elan edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarına ünvanlandığı təbrik məktubunu oxuyub.

Sədr Fərhad Abdullayev təbrik məktubuna görə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevə Konstitusiya Məhkəməsinin bütün kollektivi və konfrans iştirakçıları adından öz dərin təşəkkürünü və minnətdarlığını bildirib. Fərhad Abdullayev qeyd edib ki, dövlət başçısının Konstitusiya Məhkəməsinin işinə verdiyi bu qiymət məhkəmənin kollektivi üçün yüksək etimadın təzahürüdür.

Fərhad Abdullayev xüsusilə vurğulayıb ki, dövlət başçısı İlham Əliyev məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısı olaraq hakimlərin və ümumilikdə məhkəmə orqanlarının qərəzsiz, müstəqil və şəffaf fəaliyyətini, onların maddi-sosial təminatını daim diqqət mərkəzində saxlayır. Bu diqqət məhkəmə hakimiyyəti və hər bir hakim üçün çox dəyərlidir.

Daha sonra sədr Fərhad Abdullayev konfransda iştirak edən qonaqları salamlayaraq qeyd edib ki, bu il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam oldu. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Ulu Öndərin 100 illik yubileyi münasibətilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması Ümummilli Liderin əziz xatirəsinə əbədi ehtiramın bariz nümunəsidir.

Sədr dahi şəxsiyyət Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı əvəzolunmaz xidmətlərindən biri olan uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulması haqqında söhbət açıb. Qeyd edib ki, həmin proses çərçivəsində ən əlamətdar hadisələrdən biri 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul olunması idi.

Referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyətinin yaradılmasına və hüquq sisteminin müasir tələblərə uyğun formalaşmasına geniş imkanlar açıb.

Vurğulanıb ki, insan hüquq və azadlıqlarının müdafiəsini dövlətin ali məqsədi elan etmiş Konstitusiyanın aliliyinin təmin edilməsi, Əsas Qanunda təsbit olunmuş insan hüquq və azadlıqlarının dövlət tərəfindən müdafiə olunması məqsədilə 1998-ci il iyulun 14-də Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılıb.

Qeyd edilib ki, müstəqil Azərbaycanın Konstitusiyasının müəllifi olan Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu tarixi torpaqlarımızın işğaldan azad edilməsi və doğma Azərbaycanın ərazi bütövlüyünün bərpası idi. Ümummilli Liderin bu arzusunu və vəsiyyətini onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə igid Azərbaycan Ordusu yerinə yetirdi. 44 günlük Vətən müharibəsi nəticəsində dövlətimizin ərazi bütövlüyü bərpa edildi.

Fərhad Abdullayev qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində hər zaman mühüm yer tutacaq. İşğaldan azad olunan ərazilərimizin bərpası və yenidən qurulması prosesi bu gün yüksək səviyyədə və sürətlə həyata keçirilir. Bu iş dövlət başçısının daim diqqət mərkəzindədir.

Xüsusilə vurğulanıb ki, torpaqlarımızın işğaldan azad olunması ilə Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi həmin ərazilərdə də bərpa edilib.

Sədr Konstitusiya Məhkəməsinin fəaliyyətindən danışaraq qeyd edib ki, onun əsas səlahiyyətləri məhz Konstitusiyada əksini tapıb. Ölkənin Əsas Qanunu Konstitusiya Məhkəməsinin fəaliyyəti üçün fundamental hüquqi baza qismində çıxış edir. Odur ki, Konstitusiya Məhkəməsi insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı öz missiyasını həyata keçirərkən ilk növbədə Konstitusiyanın müddəalarını, orada əks olunan dəyər və prinsipləri rəhbər tutur. Məhz Əsas Qanunun normalarına istinad edilməsi insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi üçün təminat yaradır.

Sədr Fərhad Abdullayev bildirib ki, Konstitusiya Məhkəməsi fəaliyyət göstərdiyi 25 il ərzində 545 qərar və 160 qərardad qəbul edib. Hüquqi dövlət quruculuğuna öz töhfəsini vermiş həmin qərar və qərardadlarda Konstitusiyanın aliliyinin təmin edilməsinə yönəlmiş mühüm hüquqi mövqelər əksini tapıb.

Qeyd edilib ki, Konstitusiya Məhkəməsi ötən dövr ərzində hüquq və azadlıqların müdafiəsi üzrə fəaliyyətini daim təkmilləşdirib və beynəlxalq təcrübəni, o cümlədən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnu, həmçinin "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiya və ona dair Protokolları tətbiq etməyə çalışıb. Eyni zamanda Konstitusiya Məhkəməsi fəaliyyətə başladığı dövrdən xarici ölkələrin konstitusiya nəzarəti orqanları ilə, habelə beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsinə xüsusi önəm verib.

Tədbirdə iştirak edən Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini Əli Hüseynli, ədliyyə naziri Fikrət Məmmədov, Ali Məhkəmənin sədri İnam Kərimov, insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva, baş prokurorun müavini Heydər Məmmədov və Vəkillər Kollegiyasının sədri Anar Bağırov təbrik nitqləri ilə çıxış ediblər.

Daha sonra konfransda Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Zühtü Arslan "Fərdi şikayət: Türkiyədə son inkişaflar", Serbiya Respublikası Konstitusiya Məhkəməsinin sədri xanım Snejana Markoviç "Əsas konstitusiya prinsiplərinin müdafiəsində Konstitusiya Məhkəməsinin rolu", Qazaxıstan Respublikası Konstitusiya Məhkəməsinin sədri xanım Elvira Azimova "Qanunun aliliyi və insan hüquqlarının müdafiəsi üzrə öhdəliklərə əməl olunmasına konstitusiya nəzarətinin səmərəliliyi", Albaniya Respublikası Konstitusiya Məhkəməsinin sədri xanım Holta Zaçay "Albaniya Konstitusiya Məhkəməsi məhkəmə islahatları və konstitusiya dəyişiklikləri fonunda - əldə edilmiş nəticə", Bolqarıstan Respublikası Konstitusiya Məhkəməsinin sədri xanım Pavlina Panova "Ənənə və tərəqqi arasında tarazlıq", Qırğız Respublikası Konstitusiya Məhkəməsinin sədri Emil Oskonbayev "Konstitusiya nəzarəti orqanının məhkəmə fəallığının qanunvericiliyin inkişafına təsiri", İndoneziya Respublikası Konstitusiya Məhkəməsinin sədri Anvar Usman "İndoneziyada qanunvericiliyin inkişafına töhfə verilməsində insan hüquqlarının və qanunun aliliyinin rolu", Özbəkistan Respublikası Konstitusiya Məhkəməsinin sədri Mirza Uluqbek Abdusalomov "Özbəkistanda konstitusiya islahatı və konstitusiya nəzarətinin inkişafının yeni mərhələsi", Belarus Respublikası Konstitusiya Məhkəməsinin hakimi xanım Alla Bodak "Konstitusiya nəzarəti: qanunvericiliyin konstitusiyalaşdırılması", Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin hakimi Qadis Hacıyev "Rusiya Federasiyası qanunvericiliyinin konstitusiya əsaslarının formalaşdırılmasında Konstitusiya Məhkəməsinin iştirakı", Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının müdiri Alış Qasımov "Əmək məzuniyyətlərinin hüquqi tənzimlənməsi: mövcud boşluqlar və onların konstitusiya normalarının şərhi vasitəsilə aradan qaldırılması" və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Rövşən İsmayılov "Konstitusiya nəzarəti orqanlarının təcrübəsində qanunların konstitusiyaya uyğun təfsiri" mövzularında çıxış edərək təmsil etdikləri ölkələrdə konstitusiya ədalət mühakiməsi sahəsində mövcud təcrübəni təqdim ediblər.

Məruzə və çıxışlardan sonra müzakirələr və geniş fikir mübadiləsi aparılıb.

Tədbirin sonunda sədr Fərhad Abdullayev çıxış edərək konfransın gedişində müxtəlif aktual mövzularda səmərəli fikir mübadiləsi aparıldığına nail olunduğunu bildirib. Diqqətə çatdırılıb ki, müxtəlif hüquq sistemlərinə malik ölkələrin təcrübələrinin bölüşdürüldüyü konfransda maraqlı müzakirələr aparılıb, konstitusiya hüququnun müxtəlif sahələri, xüsusilə də Konstitusiya Məhkəməsinin qərarlarında formalaşdırdığı hüquqi mövqelər və konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericilikdə boşluqların aradan qaldırılması, onun inkişafı ilə bağlı maraqlı fikirlər ifadə edilib.

Sədr xüsusilə vurğulayıb ki, dövlət başçısı İlham Əliyevin məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısı olması hər zaman məhkəmələrin müstəqil və şəffaf fəaliyyətinə, qərəzsiz şəkildə qərarların qəbul edilməsinə imkan yaradır. Öz növbəsində Konstitusiya Məhkəməsi də fəaliyyət göstərdiyi müddətdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, bu gün isə Prezidentin dəstəyini hər zaman hiss edib. Bu dəstək qürurverici olmaqla yanaşı, eyni zamanda böyük məsuliyyət deməkdir. Konstitusiya Məhkəməsinin kollektivi hər zaman üzərinə düşən bu məsuliyyətli missiyanı layiqincə yerinə yetirməyə çalışır.

Bununla da Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunan beynəlxalq konfrans işini başa çatdırıb.

Sonra Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan Konstitusiya məhkəmələrinin sədrlərinin Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransının (TDKYK) çərçivəsində işçi iclası keçirilib. İclasda konstitusiya ədalət mühakiməsi sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Xarici dövlətlərin Konstitusiya məhkəmələrinin nümayəndə heyətləri səfər çərçivəsində Azərbaycanın zəngin tarixi və mədəniyyəti ilə də tanış olacaqlar.

# Dərman vasitələrinin dövriyyəsinə nəzarət mexanizmi təkmilləşdirilir

İyulun 4-də Milli Məclisin Səhiyyə komitəsinin növbəti iclası keçirilib. Komitə sədri Əhliman Əmiraslanov gündəlikdə ikinci oxunuşda təqdim edilən "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin olduğunu bildirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Əhliman Əmiraslanov qanun layihəsinin əhəmiyyətini qeyd edərək, sənədin birinci oxunuşda komitədə və plenar iclasda geniş müzakirə olunduğunu, deputatlar tərəfindən bir çox qeyd və təkliflərin verildiyini söyləyib. Komitə sədri dərman preparatlarının dövlət qeydiyyatı prosedurunun optimallaşdırılması, ölkə ərazisinə idxal edilən keyfiyyətli dərman vasitələrinin sayının artırılması, dərman qıtlığının aradan qaldırılması, dərman vasitələrinin ölkəmizdə istehsal olunması məsələləri ilə bağlı fikirlərini açıqlayıb.

Təqdim olunan qanun layihəsində dərman vasitələrinin dövriyyəsinə nəzarəti təmin etmək məqsədilə Səhiyyə Nazirliyi tərəfindən aparılan elektron təqib və izləmə sisteminin tətbiq edilməsi nəzərdə tutulub. Bu sistem istehsal və idxal olunan malların dövriyyəsinə, topdan və pərakəndə satışına nəzarəti həyata keçirən və bununla bağlı məlumatları qeydə alan informasiya ehtiyatı olacaq. Həmçinin dərman vasitələrinə reseptlərin elektron formada yazılmasına imkan verən sistemin tətbiqi nəzərdə tutulub. Sənədə əsasən, dövlət qeydiyyatına alınmış dərman vasitələrinin tənzimlənən qiymətlərdən yuxarı qiymətlərlə satılması qadağan olunur.

Layihədə həmçinin bioloji aktiv qida əlavələri ilə əlaqədar tənzimləmələr təkmilləşdirilir. Bununla yanaşı, tibb vasitələrinin idxalı, sertifikatlaşdırılması, reyestrinin aparılmasına dair tənzimləmələr, dərman vasitələrinin idxalına icazə verilməsi proseduru, dərman vasitələrinə reseptlərin yazılması qaydası müəyyən edilir.

Məsələ ilə bağlı çıxış edən komitə sədrinin müavini Rəşad Mahmudov, komitə üzvləri Sədaqət Vəliyeva, Kamilə Əliyeva, Kamaləddin Qafarov, deputat Etibar Əliyev təklif olunan dəyişikliklərin günün tələbinə uyğun olduğunu, sənədin dərman preparatlarına əlçatanlığın təmin edilməsinə, tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasına töhfə verəcəyini söyləyiblər. Millət vəkilləri qanun layihəsi ilə bağlı bəzi qeyd və təkliflərini də səsləndiriblər.

İclasda parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev, səhiyyə nazirinin müavini Rasim İsmayılov müzakirələrdə səsləndirilən fikirlərə münasibət bildirib, qaldırılan məsələlərə aydınlıq gətiriblər, deputatların verdiyi sualları cavablandırıblar.

Çıxışlarda dərman qiymətlərinin tənzimlənməsi qaydaları, buna təsir edən faktorlardan bəhs edilib. Habelə dərman vasitələrinin çeşidlərinin genişləndirilməsi, onların keyfiyyətinin yaxşılaşdırılması məsələlərinə toxunulub, tibb sahəsində maarifçilik işinin vacibliyindən danışılıb, səhiyyə sahəsində həyata keçirilən islahatların əhəmiyyəti qeyd olunub.

Müzakirələrin yekununda "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda Milli Məclisin iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# İsrailli sabiq nazir Azərbaycanın haqsız tənqidlərə məruz qalmasından yazıb

Azərbaycan və İsraili yalnız yaxın münasibətlər birləşdirmir, bu dünyəvi və demokratik müsəlman dövləti ən azından yəhudi dövlətinin mütəmadi olaraq tuş gəldiyi tənqid atəşinə məruz qalır.

AZƏRTAC xəbər verir ki, bu barədə İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqtisadi Sülh Mərkəzinin prezidenti, tanınmış siyasətçi və politoloq Ayub Kara özünün ABŞ-nin geniş oxucu kütləsinə malik "Jewish News Syndicate" nəşrində dərc olunmuş məqaləsində yazıb.

"Konqresdə keçirilən tədbirdə Azərbaycanla "İsrailsayağı" rəftar olundu" sərlövhəli məqalədə ABŞ Konqresinin Tom Lantos İnsan Haqları Komissiyası tərəfindən 2023-cü il iyunun 21-də təşkil olunmuş panel müzakirələrinin onda çoxdan formalaşmış rəyi möhkəmləndirdiyini qeyd edən müəllif "Dağlıq Qarabağ xalqının müdafiəsi" adlı tədbirin Holokostdan qurtulmuş konqresmenin adını daşıyan komissiyada müzakirə olunmasını istehza ilə, Konqres üzvlərinin və digər tanınmış amerikalıların İran rejiminə qarşı Amerikanın ən böyük müttəfiqlərindən olan Azərbaycana hücum etməsini isə hiddətlə qarşılayıb.

Müəllif bu qənaətə gəlib ki, Konqresin insan haqları komitələri, görünür, artıq münaqişənin hər iki tərəfinə ədalətli yanaşmağa əhəmiyyət vermirlər. Belə ki, tədbirdə çıxış edənlər ermənilərə üstünlük veriblər, Azərbaycanı müdafiə edən səslər isə susdurulub. İsrailli politoloq bu mənada Azərbaycanın Qarabağdan "xristianları qovduğunu" iddia edən keçmiş ABŞ səfiri Sem Braunbekin canfəşanlığına xüsusi diqqət çəkib, eyni zamanda ona Azərbaycanda 30 min yəhudi və 450 minə qədər xristianın bərabərhüquqlu vətəndaş kimi yaşadığını xatırladıb, Braunbekin Vaşinqtonun Azərbaycana "minimum insan haqları standartları"nın nədən ibarət olmasını diktə etməsini və ABŞ-nin Ermənistana "əsas təhlükəsizlik zəmanətləri" verməsini şərtləndirən qanunun qəbulunun zəruriliyi barədə fikrinə ciddi etirazını bildirib.

Amerika Müəssisəsi İnstitutunun baş elmi işçisi Maykl Rubinin "Vaşinqton İsraili diplomatik yolla inandırmalıdır ki, Azərbaycanı kor-koranə dəstəkləməyə davam etmək onun maraqlarına uyğun olmaya bilər" fikrini şərh edən sabiq nazir istehza ilə bildirib: "Sözügedən yanaşmaya görə, İsraili öz istəklərini yerinə yetirən "Amerika kuklasına" çevirməyə ümid edən güclü erməni lobbisi üzündən onun ölkəsi İran və molla rejiminin əlaltılarının təhdidləri qarşısında öz maraqlarına zidd olaraq Azərbaycanı dəstəkləməyi dayandırmalıdır".

Vaşinqtonun sözügedən təzyiqlərə hansı reaksiyanı verməsi məsələsinə aydınlıq gətirən sabiq nazir İsrailin ABŞ-nin bu cür təzyiqlərə qarşı durmaqla İran təhlükəsi ilə mübarizədə ən böyük və sadiq müttəfiqlərindən olan Azərbaycanın tərəfində olmasını alternativi olmayan seçim adlandırıb.



Bu gün bizə qarşı aparılan çirkin kampaniyanın heç bir əhəmiyyəti yoxdur və olmayacaq. Bizim iradəmizə heç kim təsir edə bilməz. Əgər Vətən müharibəsi dövründə bizim iradəmizə heç kim təsir edə bilmədisə, bu gün, təbii ki, heç kim təsir edə bilməz.

**İlham ƏLİYEV**

# GÜCLÜ SİYASİ İRADƏ

## Azərbaycanı qüdrətli və sözükeçər edən də budur

Siyasət təkcə yüksək intellekt, uzaqgörənlik, zəruri biliklər, peşəkarlıq və təcrübə tələb etmir.

Siyasətdə həm də:

* ənənə;
* varislik;
* qətiyyət və prinsipiallıq;
* bütövlükdə möhkəm siyasi iradə olmalıdır!

Yaxın keçmişimizdə Azərbaycana rəhbərlik edənlərin qorxaqlığı və naşılığı səbəbindən başımıza gətirilən müsibətlər həm də zəif siyasi iradənin, daha doğrusu, iradəsizliyin nəticəsi idi.

**Ə.Vəzirov SSRİ-nin ilk və son prezidenti M.Qorbaçovun Azərbaycana qoşun yeridilməsi barədəki qərarına müqavimət göstərə bilmədi.**

*Nəticədə paytaxt Bakıda 1990-cı ilin 20 Yanvar faciəsi yaşandı.*

*Sovet ordusu öz xalqına güllə atdı, yüzlərlə ölən və yaralanan oldu.*

**A.Mütəllibov adlarını "demokrat" qoyan bir qrup cəbhəçi - qaragüruhla bacarmadı.**

*Nəticədə onlar parlament çevrilişi yolu ilə iqtidara gələrək Azərbaycan xalqını müsibətlərə düçar etdilər.*

*Xəyanət yolu ilə Şuşa və Laçını düşmənə verdilər, naşı və səriştəsiz siyasət yürütdülər, ölkəni xaos və anarxiya, qanunsuzluqlar bataqlığına sürüklədilər.*

**İradəsizlik simvolu sayılan Ə.Elçibəy ortabab riyaziyyat müəllimi R.Qazıyevi müdafiə naziri, ortabab fizika müəllimi T.Qasımovu xarici işlər naziri, ortabab "obxss" İ.Həmidovu daxili işlər naziri, ortabab laborant P.Hüseynovu baş nazir, ortabab qəzet müxbiri Ə.Kərimovu dövlət katibi təyin etdi.**

*Nəticədə Azərbaycan bir dövlət kimi məhvolma həddinə çatdırıldı, vətəndaş müharibəsi alovlandı.*

**Yalnız siyasət nəhəngi Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra bütün işlər öz yerini, öz axarını tapdı!**

**Onun simasında bir daha əsl siyasətçinin və yetkin siyasətin necə olmasının şahidinə çevrildik!**

❖❖❖

*Ulu Öndərin Azərbaycan xalqına məşhur və tarixi müraciətində İlham Əliyevlə bağlı maraqlı bir fikir də var:*

*"O, dünya siyasətini dərindən bilir!"*

*Artıq bütün dünya buna şahiddir!*

**Bəli, Heydər Əliyev siyasi kursunu ləyaqətlə davam etdirən Prezident İlham Əliyev yüksək biliyə, analitik intellektə, qətiyyət və prinsipiallığa, möhkəm və dönməz siyasi iradəyə malik xarizmatik liderdir!**

İlham Əliyev 2003-cü ilin prezident seçkilərindən dərhal sonra bir dövlət başçısı kimi çətin sınağa çəkildi.

O ərəfədə baş nazir kimi prezident səlahiyyətlərini də icra edirdi.

Daxili və xarici xəyanətkarlar ölkədə yenidən xaos və anarxiya yaratmaq, hakimiyyəti zəbt etmək üçün xaricdəki ağalarının göstərişi ilə küçəyə çıxdılar.

İnsanlara çağırışlar etdilər, avtobusların qarşısını kəsərək sərnişinləri bayıra çıxarmaqla öz sıralarına qoşulmağa məcbur etməyə çalışdılar, "Azadlıq" meydanını "ələ keçirdilər", tribunaya qalxdılar.

Lakin başı bəlalar görmüş Azərbaycan xalqı beləlchange qoşulmadı!

**İlham Əliyev isə qətiyyəti və güclü siyasi iradəsi sayəsində hakimiyyət hərislərini və bu yolda hər xəyanətə hazır olanları yerlərində oturtdu!**

*Azərbaycan xalqı da, bütün dünya da gördü ki, hakimiyyət sükanı möhkəm və etibarlı əllərdədir!*

❖❖❖

**Cənab İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən - Prezident kimi and içəndə işğala son qoyacağını, ölkənin ərazi bütövlüyünü bərpa edəcəyini Azərbaycan xalqına vəd, bütün dünyaya isə bəyan etdi!**

*Bunun üçün zəruri olan bütün addımları atdı, etibarlı təməl yaratdı!*

* Daim Azərbaycan xalqının maraqlarını təmin edən müstəqil siyasət yürütdü!
* ATƏT-in Minsk qrupu çərçivəsində nəticəsiz danışıqları davam etdirsə də, torpaqların hərbi yolla azad edilməsi istiqamətində yorulmadan çalışdı!
* Beynəlxalq qurum və təşkilatlarda səmərəli iş apardı, Azərbaycanın siyasi nüfuzunu yüksəltdi, regionda və dünyada söz sahibinə çevirdi!
* Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün zəruri tədbirlər gördü, xalqın milli birliyini yaratdı!
* Hər hansı dövlət və beynəlxalq təşkilat tərəfindən ölkəmizə hansısa formada müxtəlif təzyiqlərin göstərilməsinə yol vermədi, Azərbaycanın ziyanına olan heç bir sənədə imza atmadı!

*Hərbi sahədə də ciddi hazırlıqlar gördü:*

* Yeni gənc nəsli tərbiyə etdi, idman arenalarında ilkin sınaqlardan keçirərək, onların iştirakı ilə qüdrətli ordu yaratdı!
* Çox böyük üzaqgörənliklə ordunu ən yeni texnologiyalara əsaslanan silahlarla təchiz etdi!
* Hərbi əməliyyatlara başlamaq üçün ən uğurlu və münasib vaxt seçdi!
* 44 günlük Vətən müharibəsi dövründə hərbi əməliyyatlara məharətlə rəhbərlik edərək xalqda və orduda ruh yüksəkliyinin, döyüş əzminin qorunub saxlanılmasına nail oldu!
* Ən yeni strategiya və taktika tətbiq etməklə hərbi əməliyyatların qısa müddətdə, böyük zəfərlə başa çatmasını təmin etdi!
* Ən az itki ilə ən yüksək nəticəyə nail oldu!
* Təbii relyef baxımından çətin, düşmənin ən güclü və mürəkkəb müdafiə istehkamları qurduğu Ağdam, Laçın və Kəlbəcər rayonlarını bir güllə atmadan azad etdi!
* Hər üç cəbhədə - həm hərb meydanında, həm də diplomatiya və informasiya müharibəsində şəksiz qələbə qazandı!
* İrəli sürdüyü şərtlər yerinə yetirilməyənədək hərbi əməliyyatları dayandırmadı!
* Düşmən ordusunu məhv edərək qarşısında diz çökdürdü, kapitulyasiya aktını imzalamağa məcbur etdi!
* XXI əsrin müharibələr tarixində yeni səhifə açaraq ortaya müasir müharibə nümunəsi qoydu!
* Azərbaycan xalqını qalib xalqa çevirərək milli mənliyini özünə qaytardı, bir dövlət rəhbəri və mahir sərkərdə kimi adını tariximizin qızıl səhifələrinə əbədi həkk etdi!

❖❖❖

*Azərbaycan möhtəşəm qələbə qazanaraq ərazi bütövlüyünü bərpa etsə də, mübarizə hələ də davam edir.*

Diplomatik və hərbi-siyasi sahədə:

* Dünyada gərgin geosiyasi vəziyyət yaşanır;
* Bölgəmizdə yeni təhdidlər mövcuddur;
* Hayastanda revanşist qüvvələr baş qaldırırlar;
* Hayların havadarları və müdafiəçiləri nəyəsə nail olmaq üçün bütün vasitələrə əl atır, dəridən-qabıqdan çıxırlar;

**Müzəffər Ali Baş Komandan İlham Əliyev bütün bunları görür və bilir, səbir və təmkin göstərir, nəyin nə vaxt və necə baş verəcəyini dəqiq müəyyənləşdirərək zamanında və məqamında lazım olanı edir!**

*Ordunun qüdrətinin və döyüş qabiliyyətinin artırılması daim diqqət mərkəzində saxlanılır:*

* Yeni silahların alınması prosesi davam edir;
* Ölkəyə yeni pulotsuz uçuş aparatları gətirilir;
* Böyük dağıdıcı qüvvəyə və yüksək dəqiqliyə malik uzaqmənzilli raketlər alınır;
* Yeni döyüş birləşmələri, ilk növbədə, Komando Qüvvələri yaradılır;
* Xüsusi təyinatlıların say tərkibi genişləndirilir;
* Dəniz piyadalarının sayı dəfələrlə artırılır;
* Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti kimi qurumlarda xidmət edənlərin sayı və döyüş keyfiyyəti yüksəldilir!

*Uğurlu iqtisadi siyasət, Azərbaycanın iqtisadi imkanlarının genişləndirilməsi bütün bu məsələlərin yüksək səviyyədə icrasına imkan yaradır!*

❖❖❖

Ərazi bütövlüyünü döyüş meydanında bərpa edən Azərbaycan bu gün ordusunun qüdrətini artırmaqla yanaşı, Qarabağ və Şərqi Zəngəzurda sürətli və genişmiqyaslı bərpa və quruculuq işləri də aparır.

**Bölgədə gündəliyi müəyyən edən, söz sahibi olan yenə də Azərbaycandır!**

**Azərbaycan yeni reallıqlar yaradıb və hamını bu reallıqlarla hesablaşmağa vadar edir!**

*Hayastanın özünün və havadarlarının dedikləri və istədikləri İlham Əliyevin möhkəm siyasi iradəsi sayəsində havada qalır:*

* ATƏT-in Minsk qrupu artıq tarixin arxivinə verilib!
* Status məsələsi lazım olan yerə göndərilib!
* Laçında sərhəd-buraxılış məntəqəsi yaradaraq ölkəmizə kimin gəlib-getməsini özümüz müəyyənləşdiririk!
* Dünən "Qarabağ Ermənistandır və nöqtə" söyləyənlər bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır - nida" sözlərini təkrarlayırlar!

**Bütün addımlar möhkəm iradə, düşünülmüş siyasət və vahid proqram əsasında atılır!**

**Heç kim bizim daxili işlərimizə qarışa, burun soxa bilmir!**

Biz daim ikili standartlara qarşı mübarizə aparmış, haqq-ədalət tələb etmişik!

Biz erməni vandallığına və vəhşiliyinə göz yuman beynəlxalq qurum və təşkilatları qınamış, obyektiv olmağa çağırmışıq!

*Biz Avropanın və digər dövlətlərin parlamentlərində oturaraq rüşvət müqabilində erməni maraqlarını qərəzli şəkildə müdafiə edən deputatları ifşa etmişik!*

*Vaxtilə onlar bizdən xəbərsiz və icazəsiz Xankəndiyə gəlir, burunlarını daxili işlərimizə soxurdular!*

*Gələ bilirlərsə, indi də gəlsinlər!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi kimi şərtləri də dönməz və dəyişməzdir:**

* Paşinyanın Qarabağın Azərbaycana məxsusluğu barədə etirafları kağız üzərində, sülh müqaviləsində də əksini tapmalıdır!
* Zəngəzur dəhlizi açılmalı, gediş-gəliş sərbəst olmalıdır!
* Xankəndidəki Hayastana məxsus on min nəfərlik qanunsuz silahlılar çıxarılmalıdır!
* Bütün növ təxribatlara son qoyulmalıdır və onu törədənlər bilməlidirlər ki, hər əməllərinin cavabını dərhal və artıqlaması ilə alacaqlar!

**Biz qaliblərik!**

**Biz hələlik özümüzü təmkinli aparırıq!**

Ancaq səbrin də hüdudu olur!

**Bəxtiyar SADIQOV**



# Özbəkistanın inkişafında yeni mərhələ başlayır

## Qardaş ölkədə prezident seçkiləri keçiriləcək

Azərbaycan və özbək xalqları bir-biri ilə ictimai-siyasi, mənəvi və dini tellərlə möhkəm bağlıdırlar. Tarixi, dili, dini, mədəniyyəti, adət-ənənələri eyni çeşmədən qaynaqlanan Azərbaycan və Özbəkistan bütün dövrlərdə məhz bu prinsipləri əsas götürərək aralarındakı münasibətləri daim inkişaf etdirmişlər.

Xatırladım ki, Özbəkistan strateji məhsul olan pambıq istehsalında keçmiş Sovet İttifaqının ən qabaqcıl respublikası olduğundan hər il pambıqçılıq üzrə Azərbaycanın nümayəndə heyəti Özbəkistana gedir, Özbəkistanın nümayəndə heyəti isə Azərbaycana gəlirdi. Bu münasibətlərin özü də Azərbaycan-Özbəkistan dostluğunun möhkəmlənməsinə dəyərli töhfələr verirdi.

Müstəqillik əldə etdikdən sonra müasir Azərbaycanın və Özbəkistanın yaradıcıları olan Heydər Əliyevlə İslam Kərimov arasındakı dostluq münasibətləri sayəsində ölkələrimiz arasında olan qardaşlıq əlaqələri daha da möhkəmlənmişdir. Azərbaycan bu dostluğa və qardaşlığa sadiq qalaraq Mərkəzi Asiyada özünün ilk səfirliyini məhz 1996-cı ildə Özbəkistanda açmışdır. Ulu Öndər Heydər Əliyev qeyd etmişdir ki, "Azərbaycan və özbək xalqları arasında olan əlaqələr qədim tarixə malikdir, bütün dövrlərdə bizim xalqlar dost olmuş, bir-birini müdafiə etmiş, mədəni dəyərlərimizi birlikdə inkişaf etdirmişlər". İslam Kərimov isə demişdir: "Biz Azərbaycanı tariximizə, mentalitetimizə, dinimizə və mənəviyyatımıza görə yaxın olduğu üçün özümüzə yaxın ölkə sayırıq".

Ümummilli Lider Heydər Əliyev və İslam Kərimov ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsi üçün bir neçə dəfə qarşılıqlı səfərlər etmişlər.

Mən və deputat həmkarlarım Özbəkistan respublikasında keçirilən prezident və parlament seçkilərində dəfələrlə müşahidəçi qismində iştirak etmişik. Müşahidələrimiz göstərib ki, bütün seçkilər qardaş ölkədə bayram əhvali-ruhiyyəsində keçirilir, seçicilərin aktivliyi həmişə yüksək olur. Namizədlər üçün bərabər şərait yaradılır, seçkilər tam şəffaf keçirilir.

Bu il iyulun 9-da keçiriləcək növbəti prezident seçkilərində də Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynlinin rəhbərliyi ilə mən, deputat həmkarlarım Cavanşir Paşazadə, Elman Nəsirov, Anar Məmmədov və MDB Parlamentlərarası Assambleyanın xətti ilə deputat Arzu Nağıyev müşahidəçi kimi iştirak edəcəyik.

Qeyd edim ki, bu prezident seçkisi Özbəkistanda bu il aprel ayının 30-da keçirilən ümumxalq səsverməsi-referendumla ölkə Konstitusiyasına edilən dəyişikliklə əlaqədar keçirilir. Hesab edirəm ki, əvvəlki seçkilərdə olduğu kimi, bu seçki də yüksək səviyyədə təşkil ediləcək və seçicilər öz iradələrinə uyğun olaraq dəstəklədikləri namizədə səs verəcəklər.

Heydər Əliyev və İslam Kərimov arasında olan dostluq münasibətlərini bu gün Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev davam etdirirlər və bu iki qardaş dövlətin əlaqələrinin daha da inkişafına yol açıb. Son bir ildə Azərbaycan Prezidenti cənab İlham Əliyev Özbəkistanda bir dəfə dövlət səfərində, iki dəfə isə işgüzar səfərdə olmuşdur. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev isə bu ilin mart ayında respublikamızda işgüzar səfərdə olmuşdur. Ölkələrimiz arasında indiyə kimi 154 sənəd imzalanmış və son illər Azərbaycanla Özbəkistanın ticarət dövriyyəsinin və investiyaların həcmi sürətlə artmaqdadır.

Azərbaycan-Özbəkistan münasibətləri hər iki ölkənin parlamentləri səviyyəsində də son illərdə genişlənib. Belə ki, keçən il Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova Özbəkistanda, Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva və Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının Sədri Nurdirjon İsmoilov isə Azərbaycanda rəsmi və işgüzar səfərlərdə olmuşlar.

Parlamentlərarası əlaqələr həm də hər iki ölkənin parlamentində yaradılmış parlamentlərarası əlaqələr üzrə işçi qrupları vasitəsilə də davam etdirilir. Hazırda Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun 26 deputatdan ibarət üzvü vardır və Milli Məclisin ən böyük işçi qrupundan biridir. Qrupumuz Özbəkistan parlamentinin yuxarı və aşağı palatasının üzvlərindən olan 13 deputatın birləşdiyi qrupla daim əlaqə saxlayır, fikir mübadiləsi aparır.

Qardaş özbək xalqı ilə dostluq əlaqələrimiz eyni zamanda Azərbaycan-Özbəkistan "Dostluq Cəmiyyəti" vasitəsilə də həyata keçirilir. Bu cəmiyyət 2002-ci ildə təsis edilib və yarandığı tarixdən indiyə kimi öz fəaliyyətini iki qardaş xalq arasında münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində qurub.

Azərbaycan və özbək xalqları arasındakı münasibətlərin kökü uzaq keçmişə gedir. Əsrlər boyu və hal-hazırda da bizim xalqları bir-birinə bağlayan dostluq və qardaşlıq dilimizin, dinimizin, adət-ənənələrimizin və mədəniyyətimizin eyni köklərə mənsub olmasıdır. Cəmiyyəti yaratmaqda məqsəd də bu əlaqələri və ənənələri SSRİ dağılandan sonra müstəqil dövlət kimi formalaşan ölkələrimizin suverenliyi dövründə də qoruyub saxlamaq və inkişaf etdirməkdir. Bu istqamətdə cəmiyyətimiz Özbəkistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanovla sıx əməkdaşlıq edərək birlikdə mühüm işlər görür. Hər iki xalqın dünyaşöhrətli klassik və müasir yazıçı və şairlərinin, tanınmış ziyalılarının həyat və yaradıcılığına həsr olunmuş konfranslar və ədəbi-bədii görüşlər təşkil edilir və digər tədbirlər həyata keçirilir.

Ümid edirik ki, iyulun 9-na təyin edilmiş prezident seçkiləri də həmişə olduğu kimi yüksək səviyyədə təşkil ediləcək, yeni seçilən Özbəkistan Prezidenti özbək xalqının və dövlətinin xoş gələcəyini təmin edəcək, Özbəkistan-Azərbaycan dostluğunun daha da mökəmlənməsi və inkişafına dəyərli töhfələr verəcəkdir.

***Eldar İBRAHİMOV,***

***Milli Məclisin Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyətinin sədri, professor***

# YAP Mərkəzi Aparatında Malayziyanın Birləşmiş Malay Milli Təşkilatının nümayəndələri ilə görüş keçirilib



İyulun 4-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında ölkəmizdə səfərdə olan Malayziyanın Birləşmiş Malay Milli Təşkilatının (UMNO) nümayəndə heyəti ilə görüş keçirilib.



Qonaqları salamlayan YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Malayziyanın Azərbaycan üçün dost ölkə olduğunu bildirib. Bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğunu xatırladan YAP Sədrinin müavini Azərbaycanla Malayziya arasında müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı münasibətlərin inkişafı üçün geniş imkanların olduğunu diqqətə çatdırıb.

Tahir Budaqov qeyd edib ki, hər iki ölkə ikitərəfli əlaqələrlə yanaşı, Qoşulmama Hərəkatı çərçivəsində də fəal əməkdaşlıq edir. Eyni zamanda Malayziya hər zaman Azərbaycanın haqq işini, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib, dövlət səviyyəsində bəyanatlar yayıb.

YAP Mərkəzi Aparatının rəhbəri qarşılıqlı səfərlərin önəminə toxunaraq iki ölkə arasında fəal siyasi dialoqun iqtisadi-ticari əlaqələrin inkişafı üçün möhkəm zəmin yaratdığını söyləyib.

Tahir Budaqov siyasi partiyaların əməkdaşlığının Azərbaycan-Malayziya işbirliyinin dərinləşdirilməsinə mühüm töhfə olduğunu qeyd edib. Diqqətə çatdırılıb ki, Bakıda YAP-ın evsahibliyi ilə keçirilən ICAPP-ın bir sıra tədbirlərində, o cümlədən 2022-ci il noyabrın 22-də "Təhlükəsizlik və əməkdaşlıq: Siyasi partiyaların rolu" mövzusunda xüsusi konfransında UMNO-nun da daxil olduğu Malayziyanın iqtidar koalisiyasında yer alan siyasi partiyaların nümayəndələrinin iştirak etməsi ikitərəfli və çoxşaxəli əlaqələrin inkişafına təkan verib. Tahir Budaqov parlamentlərarası əlaqələrin genişləndirilməsinin də əhəmiyyətindən bəhs edib və bu sahədə təmasların sıxlaşdırılmasının önəmli olduğunu vurğulayıb.

Yüksək diqqətə və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Malayziyanın Cohor ştatının naziri, UMNO Gənclər Birliyinin rəis müavini Mohd Hairi Bin Mad Shah Azərbaycana səfər etməkdən məmnunluğunu ifadə edib. O qeyd edib ki, Malayziya Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verir.

Mohd Hairi Bin Mad Shah hazırda 3 milyondan çox üzvü olan UMNO-nun fəaliyyəti haqqında məlumat verib və bu siyasi partiyanın Malayziyanın müstəqillik qazandığı 1957-ci ildən ölkənin əsas hakim partiyası olduğunu diqqətə çatdırıb. O, təmsil etdiyi təşkilatın Yeni Azərbaycan Partiyası ilə çoxşaxəli əlaqələrin qurulmasında və inkişafında maraqlı olduğunu bildirib. Mohd Hairi Bin Mad Shah YAP-ın gənclər siyasəti sahəsində təcrübəsinin onlarda xüsusi maraq doğurduğunu və bu istiqamətdə qarşılıqlı fikir mübadiləsinin aparılmasının böyük önəm daşıdığını vurğulayıb.

Görüşdə həmçinin YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, Malayziya xarici işlər nazirinin siyasi katibi Akmal Zharif Bin Ahmad Kamal və UMNO-nun Qadınlar Birliyinin kommunikasiyalar üzrə sədri Rosni Binti Zahari çıxış edərək partiyalar arasında münasibətlərin inkişafı və iki ölkə gənclərinin qarşılıqlı əlaqələrinin genişləndirilməsi ilə bağlı fikirlərini bildiriblər.

Sonda qarşılıqlı olaraq hədiyyələr təqdim olunub və xatirə fotosu çəkdirilib.

# Azərbaycan və Pakistan arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlığa dair fəaliyyət planı imzalanıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının xaricdə yaşayan pakistanlılarla iş və insan resurslarının inkişafı naziri Sacid Hüsseyn Turinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olub.



Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycan və Pakistan arasında dostluq, qardaşlıq və strateji tərəfdaşlığa əsaslanan yüksəksəviyyəli münasibətlərin olduğunu, iki ölkənin dövlət başçılarının səyləri ilə bu əlaqələrin daim inkişaf etdiyini vurğulayıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Pakistanın Azərbaycanın ərazi bütövlüyünə daimi dəstəyindən, xüsusilə 44 günlük Vətən müharibəsində ölkəmizə, haqq savaşımıza ədalətli mövqedən göstərdiyi siyasi dəstəkdən məmnunluq ifadə olunub. İki ölkənin beynəlxalq təsisatlar çərçivəsində də sıx əməkdaşlıq etdiyi, Azərbaycan və Pakistan arasında sosial sahədə əlaqələrin genişlənməkdə olduğu diqqətə çatdırılıb.

Ötən ilin may ayında Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Pakistanın Xaricdə Yaşayan Pakistanlılarla İş və İnsan Resurslarının İnkişafı Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlıq haqqında anlaşma memorandumunun, həmçinin son illər Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya ilə Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzi arasında əməkdaşlıq sənədinin imzalandığı bildirilib.

Görüşün yekunu olaraq Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Pakistanın Xarici Pakistanlılar və İnsan Resurslarının İnkişafı Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlıq haqqında anlaşma memorandumunun həyata keçirilməsinə dair 2023-2024-cü illər üçün fəaliyyət planı imzalanıb.

Sənəddə əmək bazarının monitorinqi və proqnozlaşdırılması, məşğulluq, qeyri-rəsmi məşğulluğun qarşısının alınması, əlilliyi olan şəxslərin sosial və məşğulluq problemlərinin həlli, onlar üçün xüsusi peşə hazırlığı və peşə istiqamətləri üzrə proqramların hazırlanması, əməyin mühafizəsi və əmək münasibətlərinin tənzimlənməsinə dair qanunvericiliyin tətbiqi, əmək, məşğulluq və sosial müdafiə sahələrində İKT-nin tətbiqi və s. istiqamətlərdə məlumat və təcrübə mübadilələrinin aparılması əksini tapıb.

# Qərbi Azərbaycan İcmasının altı ayda gördüyü işlər müzakirə olunub

Qərbi Azərbaycan İcmasının 6 aylıq hesabatı dinlənilib. İcmanın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Qərbi Azərbaycan İcmasının 2023-cü ilin birinci yarısına dair fəaliyyəti ilə bağlı məlumat verən İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli əvvəlcə qurumun yaradılması tarixi barədə danışıb.

Bildirilib ki, 1989-cu ildə Azərbaycan Qaçqınlar Cəmiyyəti olaraq yaradılan, ötən il avqustun 3-də Qərbi Azərbaycan İcması olaraq yenidən təşkilatlandırılan icmanın 6 aylıq fəaliyyətində ən parlaq səhifə ötən il dekabrın 24-də Prezident İlham Əliyevin icmanın binasında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü olub. Dövlət başçısı bu görüşdə Qərbi azərbaycanlıları daha da ruhlandıran çıxışı zamanı həm də icmanın əsas sənədi olan Qayıdış Konsepsiyasının hazırlanmasına dair fikirlərini səsləndirib. Bu istiqamətdə dərhal hazırlıqlara başlanılıb və ictimaiyyətin də geniş iştirakı ilə hazırlanan konsepsiya bu il yanvarın 26-da qəbul edilib.

Sonra icmanın ölkə daxilində və beynəlxalq istiqamətdə fəaliyyətinə dair geniş təqdimat olub, keçirilən iclaslara, mühüm tədbirlərə toxunulub. Qeyd edilib ki, icmanın tərkibində Elm komissiyasının yaradılması, bölgələrdə nümayəndəliklərin fəaliyyətə başlaması, rayon və kənd icmalarının toplantılarının keçirilməsi təşkilatlanma prosesində mühüm rol oynayır.

Xarici əlaqələrə toxunan Ə.Ələkbərli Qayıdış Konsepsiyamız da daxil olmaqla, icmanın BMT-də 4 sənədinin bu təşkilatın rəsmi sənədi kimi yayıldığını vurğulayıb, nüfuzlu beynəlxalq təşkilatlara edilən müraciətlər, onlardan geri alınan cavablar (UNESCO, Aİ) barədə danışıb, Berlində icmanın rəhbər heyəti ilə dünyanın müxtəlif yerlərində yaşayan qərbi azərbaycanlı soydaşlarımızın görüşündən bəhs edib. Bildirilib ki, icmanın beynəlxalq istiqamətdə fəaliyyətinin əsas məqsədi soydaşlarımızın doğma torpaqlarına sülh yolu ilə, təhlükəsiz şəkildə və ləyaqətlə qayıtmasının təmin edilməsi prosesinə dəstək verilməsidir. Əziz Ələkbərli icmanın həm daxili, həm də xarici istiqamətdə intensiv fəaliyyətini davam etdirəcəyini vurğulayıb.

Sonra icma sədrinin müavini, deputat Hikmət Babaoğlu, Müşahidə Şurasının sədri Misir Mərdanov, Ağsaqqallar Şurasının sədri, deputat Əhliman Əmiraslanov, Nəzarət-Təftiş komissiyasının sədri Vahid Novruzov, Qadınlar Şurasının sədri, deputat Məlahət İbrahimqızı, Gənclər Birliyinin sədri, deputat Ramin Məmmədov və Ziyalılar Şurasının sədr müavini Fərrux Rüstəmov hesabatı yüksək dəyərləndirdiklərini bildirib, Qərbi Azərbaycan həqiqətlərinin daha geniş ictimaiyyətə çatdırılması istiqamətində görüləcək işlərə toxunublar.

# Makron dərk etməlidir ki...

## Azərbaycanla təzyiq dili ilə danışmaq mümkün deyil

Fransada qarışıqlıqdır. Polisin 17 yaşlı yeniyetməni qətlə yetirməsi ilə başlanan etiraz aksiyaları günlərdir ki, səngimək bilmir. Etirazçılar Parisi oda qalayıblar.

Fransanın tüstüsünün "təpəsindən çıxdığı" bir zamanda Prezident Emmanuel Makronun əhalinin qarşısına keçib ölkəsində asayişi bərpa etmək, etirazçıların tələblərini dinləmək əvəzinə, Marselə gedərək erməni icması ilə görüşməsi olduqca qəribə və əcaib görünür. Görəsən, ölkəsində xaosun, hakimiyyətsizliyin hökm sürdüyü, etiraz dalğasının bütün ölkəni bürüdüyü bir vaxtda ermənilərlə görüşü "vacib" edən nə idi? Makronu nə vadar edib ki, görüşdə Azərbaycan əleyhinə açıq-aşkar, heç bir siyasi-diplomatik əxlaq normasına sığışmayan fikirlər səsləndirsin? Öz ölkəsində nizam-intizam yarada bilməyən, ölkəsini qana sürükləyən, hakimiyyətdə olduğu müddətdə Fransanı bərbad vəziyyətə salan Makronun, necə deyərlər, özü üçün "umac ova" bilmədiyi bir məqamda ermənilər üçün "əriştə kəsmək" həvəsinə düşməsinə nə səbəb olub? Ermənilərlə görüş zamanı Makron dəridən-qabıqdan çıxaraq "Mən İlham Əliyevə Nikol Paşinyanın özündən daha çox təzyiq göstərmişəm və göstərəcəyəm. Qarabağ məsələsində mövqeyim dəyişməzdir, bu məsələdə qətiyyətimə şübhə etməyin. Beynəlxalq aləmdə bu məsələni gündəmdə saxlamaq üçün səylərimi davam etdirəcəyəm", - deməsi nədən xəbər verir. Hətta görüş zamanı Fransa Prezidenti az qala xaça and içib erməniləri inandırmağa çalışır ki, "bu məsələni dünyada təkcə o olsa da diqqətdə saxlayacaq".

### Makronu nə danışdırır?

Görünən budur ki, baş verən hadisələrin gərginliyindən Makron olan-qalan məntiqini də itirib. Belə olmasaydı, bu cür gülünc, sərsəm fikirlər səsləndirməzdi. Qeyd etdiyimiz kimi, görüşdə Makron iddia edir ki, o, Azərbaycan Prezidenti İlham Əliyevə təzyiq edib. Bir soruşan lazımdır: "Ay zavallı, Paşinyanın İlham Əliyevə harada təzyiq etmək imkanı və gücü olub ki, ondan danışıb özünü də onunla müqayisə edirsən? Danışıqlar prosesinə özünü pərçim etmək üçün girmədiyin cild, taxmadığın maska qalmayıb. Hər dəfə də İlham Əliyevin sərt, qəti mövqeyi ilə rastlaşıb oturduğun yerdə oturmusan. Sülaləniz yığışsa Azərbaycan Prezidentinə təzyiq edə bilməzsiniz".

Makronun çıxışından sonra erməni lobbisi mütləq anlamalıdır ki, Prezident İlham Əliyevə edilən təzyiqin həcmi Paşinyanla müqayisə olunursa, dolayısı ilə bu, Makronun etirafıdır. Yəni Paşinyanın İlham Əliyevə heç bir təzyiq etmək imkanı və gücü olmadığı kimi, Makronun da yoxdur. Başqa sözlə, bu, mümkün deyil və heç vaxt olası iş də deyil.

Sual oluna bilər ki, onda Makronu danışdıran nədir? İlk ağla gələn budur ki, Makron prezident seçilərkən erməni lobbisi qarşısında "ciddi öhdəlik"lər götürüb. İndi də ona maddi dəstək verən ermənilər ondan hesabat tələb edirlər. Daha doğrusu, verdiklərinin haqqını istəyirlər. Bu səbəbdən də Makron özünü "sübut" etməyə, sədaqətini sona qədər isbatlamağa çalışır. Hətta ağ yalanlar uydurmaqdan belə çəkinmir.

Makronun bu düşük hərəkətləri Fransa kimi bir dövlətin prezidentinin çıxışından çox, miskin duruma düşmüş zavvallının özünü xilas etmək üçün etdiyi çabaya bənzəyir. Bu səbəbdən də fransız xalqından çox toruna düşdüyü erməni lobbisi qarşısında özünü doğrultmağa, haqq qazandırmağa çalışır.

Kənardan çox qəribə görünür: Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi, Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanınması fonunda Fransa Prezidentinin bu hərəkətlərinə başqa cür qiymət vermək də mümkün deyil. Bizdə buna "anası dura-dura xalasının ürəyi gedir" deyirlər.

Bunu bilməyən yoxdur ki, illərdir Qarabağda münaqişə ocağını görükləyən dövlətlərin başında Fransa durur. O Faransa ki illərdir özünü Qarabağ münaqişəsinə "vasitəçi tərəf" kimi pərçim edərək "məsələni sülh yolu ilə həll etməyə çalışan", işğal olunmuş ərazilərdə istehkamlar tikən, özünün beynəlxalq aləmdəki mövqeyindən istifadə etməklə problemin həllinə birbaşa mane olurdu.

44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı qələbədən sonra Emmanuel Makron artıq simasını gizlədə bilmir, maraqlı tərəf olduğunu açıq şəkildə nümayiş etdirir, siyasi naşılığı ucbatından Fransa kimi bir dövlətin siyasi nüfuzuna ciddi xələl gətirməklə yanaşı, bu dövlət proseslərdən kənarda qalıb, afsayt vəziyyətinə düşüb. Təəccüblüsü budur ki, Makron bütün bunlardan dərs çıxarmaq əvəzinə hələ də anlamayıb ki, Azərbaycan onun təzyiq edə biləcəyi ölkə deyil.

Biz artıq Fransanı yaxşı tanıyırıq. Bu həmin Fransadır ki, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın əleyhinə BMT-də qətnamə qəbul olunması üçün dəridən-qabıqdan çıxırdı. Anladıq ki, indiyə kimi "vasitəçi" cildinə girmiş Fransa Prezidenti ədalətdən tamamilə uzaq düşüb, vasitəçi olmaq haqqını çoxdan itirib. Ara qarışdırmaqla, dünyada Azərbaycan əleyhinə feyk xəbərlər yaymaqla məşğuldur.

### "Dostunu göstər, kim olduğunu deyim"

Əbəs yerə müdrüklərimiz deməyiblər ki, "Dostunu göstər, kim olduğunu deyim". Fransa-Ermənistan dostluğunun kökündə maddi bağlılıqdan başqa, "mənəvi" tellər də başlıca rol oynayır. Bu iki bacını ruh əkizləri də adlandırmaq olar. Fransızlar Əlcəzairdə, Mərakeşdə, Tunisdə, Suriyada, Liviyada küçələri insan qanı ilə suvarıblar. Təkcə Əlcəzairdə 10 milyondan çox insanı insanlığa sığmayan vəhşiliklə qətlə yetiriblər. Fransızların Afrikada törətdikləri vəhşilikləri ermənilər Xocalıda təkrar etdilər, ermənilər də fransızların Afrikada etdikləri kimi, öldürdükləri insanların cəsədlərini tanınmaz hala saldılar. Əsirlərə, girov götürdükləri insanlara amansız işgəncə verib diri-diri torpağa gömürdülər.

Özünü "mələk" qismində göstərmək istəyən Fransa hələ bu gün də müstəmləkəçilik niyyətlərindən əl çəkməyib. Dünyanın indiki zamanında Fransanın Karib dənizi sahillərində hələ də müstəmləkələri var. Haiti və Fransa Qvianası, Guadeloupe və Martinique, Şərqi Afrikada isə Cibuti hələ də Fransanın əsarətindədirlər.

Həyat başa düşənlər, anlayanlar üçün bir məktəbdir. Nə yazıq ki, Hayastanın rəhbərləri başına gələn müsübətlərdən hələ nəticə çıxarmamış kimi görünür, Makronun çaldığı havaya oynayırlar. Ermənistan rəhbərliyi, erməni ictimaiyyəti anlamalıdır ki, 30 ildir başına gələn bəlaların əsas səbəbkarlarından biri də Makron kimilərdir. Bundan sonra da hakimiyyətə gəlmək üçün erməni lobbisinə əsir düşən Makron kimisinin göstərdiyi yolla gedəcəklərsə, fəlakətlərdən qurtula bilməyəcəklər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# REGİONLAR

## Ulu Öndərlə bağlı Goranboyda elmi konfrans keçirilib

**"Heydər Əliyev İli" çərçivəsində keçirilən silsilə tədbirlər davam edir. Bu günlər Goranboyda rayon icra hakimiyyəti və YAP rayon təşkilatının birgə təşkilatçılığı ilə "Heydər Əliyev: nə qədər ki Azərbaycan var, mən də varam" adlı elmi-praktik konfrans keçirilmişdir.**



Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanovanın, YAP İdarə Heyətinin, AMEA-nın müxbir üzvü Amin İsmayılovun və rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə keçirilən tədbir Heydər Əliyevin abidəsinin və Şəhidlər Xatirə Abidə Kompleksinin ziyarəti ilə başlamışdır.

Ümummilli Liderin ömür yolundan bəhs edən videoçarx nümayiş etdiriləndən sonra məruzələr dinlənilmişdir. Qeyd olunmuşdur ki, Heydər Əliyev Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycanın siyasi dövlət idarəçiliyi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının və milli özünüdərkin banisidir. O, Azərbaycan xalqının müasir dövlətçilik tarixində böyük yeniliklərə imza atmış Ümummilli Lider, öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir. Böyük siyasi iradəyə və sarsılmaz əqidəyə malik olan Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir.

Tədbirin sonunda bir qrup fəala YAP rayon təşkilatının fəxri fərmanları və partiyaya yeni qəbul edilənlərə üzvlük vəsiqələri təqdim olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## "Azərbaycan hökuməti iqlimə uyğun aqro-ərzaq sistemlərinin inkişafına böyük sərmayə yatırır"

**İtaliyanın paytaxtı Romada BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) 43-cü sessiyası davam edir. Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov su resurslarından səmərəli istifadə mövzusunda sessiyada çıxış edib.**

Nazir bildirib ki, planetdə torpaq və su resurslarının davamlı təzyiqə məruz qalmasının əsas səbəbi kənd təsərrüfatı fəaliyyətidir. Bütün dünyada olduğu kimi, Azərbaycanda da su ehtiyatlarının məhdudluğu, su itkisi, fermerlərin sudan səmərəli istifadə etməməsi aqrar fəaliyyətdə çətinliklər yaradır. Ölkənin su ehtiyatlarının böyük bir hissəsinin Azərbaycandan kənarda formalaşdığını deyən nazir məhdud su ehtiyatlarından daha səmərəli istifadə etməyin vacibliyini önə çəkib.

"Ölkəmizdə mövcud su ehtiyatlarının səmərəli idarə olunması üçün güclü siyasi iradə mövcuddur. Bu istiqamətdə görülən işlərdən biri iqlimə uyğun "ağıllı kənd təsərrüfatı" idarəçiliyinə investisiya qoyuluşu da daxildir. Azərbaycan hökuməti iqlimə uyğun aqro-ərzaq sistemlərinin inkişafına böyük sərmayə yatırır. İnvestisiyaların əsas hissəsi rəqəmsal və "ağıllı kənd təsərrüfatı"nın transformasiyasına yönəlib. Fermerlərin müasir suvarma sistemlərindən istifadəsi dövlət tərəfindən subsidiyalaşdırılır, torpaq kanalların beton kanallarla əvəzlənməsi, yeraltı su xətlərinin çəkilməsi, damcı suvarma və Pivot suvarmanın təşviqi səmərəli su idarəçiliyi siyasətimizin əsas prioritetlərini təşkil edir".

FAO-nun torpaq və su ehtiyatlarından səmərəli istifadə olunması, kənd təsərrüfatının rəqəmsallaşdırılması istiqamətində təşəbbüslərinin dəstəkləndiyini vurğulayan nazir Azərbaycanın bu təşəbbüslərə böyük həvəslə qoşulduğunu, bu cür çoxtərəfli platformalar çərçivəsində səmərəli əməkdaşlığa hazır olduğunu deyib.

Nazir Məcnun Məmmədov FAO-nun 43-cü sessiyası çərçivəsində qurumun yenidən sədri seçilmiş Qu Donqyu ilə də görüşüb. Nazir ölkəmizin FAO ilə uğurlu əməkdaşlıq etdiyini vurğulayıb, bu əməkdaşlığın BMT-nin Davamlı İnkişaf Məqsədlərinin icrasına öz töhfəsini verdiyini bildirib. Görüşdə Azərbaycan-FAO əlaqələrinin daha da genişləndirilməsi, FAO-nun rəqəmsal kənd təsərrüfatı, effektiv su idarəçiliyi təşəbbüslərinə dəstək və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Nazir Məcnun Məmmədov həmçinin İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Ari Ditçerlə görüşüb. Tərəflər Azərbaycanla İsrail arasında kənd təsərrüfatı sahəsində həyata keçirilən əməkdaşlığın perspektivlərinə toxunub, İsrailin müasir texnologiyalarının Azərbaycanın kənd təsərrüfatında tətbiqi ilə bağlı fikir mübadiləsi aparıblar.

*"Azərbaycan"*

## "YAŞAT" Vətən müharibəsi qazisini növbəti dəfə yaşatdı



**Tovuzun Xatınlı kənd sakini Hüseyn Mustafayev müharibə başlayandan ön cəbhədə olmuş, Xüsusi Təyinatlı Qüvvələrin tərkibində gizir kimi döyüşmüşdür.**

Şuşa və Xocavənd uğrunda gedən döyüşlərdə ağır yaralanaraq I qrup əlil olmuş qazi dövlət başçısının sərəncamları ilə "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Qüsursuz xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Bu yaxınlarda Hüseynin səhhətində yenidən narahatlıq yaranmış və o, "YAŞAT" Fondunun dəstəyi ilə qardaş Türkiyəyə göndərilmişdir. Qazi bu günlər müalicədən sonra Vətənə qayıtmışdır. Onu da qeyd edək ki, Hüseynin səhhəti və məişət qayğıları rayon rəhbərliyinin də diqqətindən kənarda qalmır.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

◆ Reportaj

## Bolluq həm də ucuzluqdur

### Cəlilabadda taxıl biçini başa çatmaq üzrədir



**Təpələri, kəndləri bir-bir arxada qoyub rahat asfalt yolla üzü qərbə doğru irəliləyirik. Bir tərəfdə biçilmiş zəmilərin küləşi xüsusi texnika ilə kipləşdirilir, digər tərəfdə bəlimi yığılmış sahələrdə şum aparılır.**

Bələdçimiz, kənd təsərrüfatı mütəxəssisi İlham Babayev onlara diqqətlə baxdığımızı görüb dillənir: "Keçmişdə - SSRİ dövründə belə iş üsuluna "İpatovo metodu" deyirdilər. Bəziləri keçmişdən qalan yaxşı ənənələrə nədənsə pis münasibət bəsləyirlər, amma bu, düz deyil. Yaxşı nə varsa, yaşatmaq lazımdır. Gördüyünüz bu iş kimi. Taxıl biçilən kimi bəlimini yığıb mal-qara üçün qış tədarükü edəndən dərhal sonra zəmi altından çıxmış torpağı tər-tər şumlamağın xeyri çoxdur. Sahə həm yaxşı çim verir, həm traktor bir o qədər gücə düşmür, həm də fermer keyfiyyətli bir yay şumu əldə etmiş olur. Yay şumu isə istədiyi qədər günəş şüası udur, enerji toplayır. Bunlar gələn ilin bol məhsulunun şərtlərindəndir".

- Rayon mərkəzinin yaxınlığında biçin yox idi ki, buralara gəldik, - deyə İ.Babayevdən soruşuram.

- Aran yerlərində biçin, demək olar ki, başa çatıb. Zəmilərin 90 faizinin məhsulu yığılıb. Buralar isə dağlıq ərazi olduğundan taxılı nisbətən gec yetişir. Qışda və yazın sonunda düşən qar-yağış bu yerlərdə yaxşı taxıl əmələ gətirib. Ona görə də hər bir fermer sevinir, - deyə cavab verir.

Uzaqda - təpələrin aşağı hissəsində daha bir kənd görünür. İ. Babayev: "Görünən o kənd Abazallıdır. Ora gedirik. Hə, yeri gəlmişkən, getdiyimiz bu asfalt yol Yardımlı rayonunadək uzanır. Bir neçə il əvvəl çəkilib. Yardımlı əhalisi yaxın olduğu üçün Bakıya, digər yerlərə gedərkən əsasən bu yoldan istifadə edir", - deyir. Buradakı kəndlərin işıq, qaz, su məsələləri ilə də maraqlanırıq. Yol yoldaşım:

- Hamısının işığı, qazı var. Su məsələsinə gəldikdə heç bir problem yoxdur, hər bir evin həyətində artezian quyusu qazılıb. Dupduru, şipşirin su çıxır. Həyətlərdəki bağ-bağça da onun hesabına yamyaşıldır. Mal-qara isə əsasən yazda dağlarda əriyən qarın, yağıntının suyu hesabına yaşayır. Yuxarıdan gələn sular kənd ərazisindəki gölməçələrə doldurulub saxlanılır.

Söhbətin bu yerində sürücü: "İlham müəllim, kombaynlar odur, qarşıdakı təpənin üstündəki zəmini biçir", - deyir. Hər ikimiz diqqətlə həmin səmtə baxırıq. İ.Babayev:

- Buradan onların yanına gedə bilməyəcəyik. Dön arxaya, görünən evin sol tərəfindən yuxarı qalx, - deyə bildirir.

Üç-dörd dəqiqədən sonra kombaynların yanına çatırıq. Bir az kənarda - təpənin ətəyində kombaynın işləməsinə nəzarət edən bir adam bizi görüb yanımıza gəlir. Salamlaşıb bərəkətli olsun deyirik. İ.Babayev sahənin kimə məxsus olduğunu soruşur. Qızmar günəş altında dərisi qaralıb tunc rəngi almış 35-40 yaşlarında olan Rəfael:

- Atamın adına olan pay torpağımızdır. Kombayn da atam Rafiq Alışovundur. Kolxoz təsərrüfatı dağılanda payına düşən "Niva" markalı kombayndır. Hər il əl gəzdirib işlək hala gətiririk. Özümüzün, kənd camaatının taxılını, demək olar ki, bununla biçirik. Yuxarı hissədə işləyən kombayn isə qonşuma məxsusdur. Çətin relyef şəraitində hər birimiz gündə 7-8 hektar sahənin taxılını biçirik. Çalışırıq, camaatın çəkdiyi zəhmət hədər getməsin, yetişdirdiyimiz məhsulu vaxtında və itkisiz yığaq.

Sahədən qayıdıb yenidən Cəlilabad Aqrar İnkişaf Mərkəzinə gəlirik. Bitkiçilik şöbəsinin müdiri Mübariz Nadirovla söhbətimizi davam etdiririk. Deyir ki, məhsulumuz, Allaha şükür, keçən ildəkindən çoxdur: "Fermerlər keçən ilin payızında 57 min 337 hektara buğda, 8 min 200 hektara arpa əkmişdilər. Payızda, qışda düşən yağış, qar əkinlərin muradını verdi. Dağlıq ərazilərin əkinlərinə bu, daha çox xeyir verdi. Yazda rayonun şərqindəki aran yerlərinə vaxtında yağıntı düşmədiyindən dağlıq zonaya nisbətən məhsuldarlıq az oldu. Buna baxmayaraq, məhsul hər halda keçən ildəkindən çoxdur. Taxılçılar, sözün əsl mənasında, yaxşı işləmişlər. Fermerlərin hamısı subsidiyanı vaxtında ala bilməsələr də, borca-xərcə düşüb yemləmə gübrəsini verdilər. Ziyanvericilərə, alaq otlarına qarşı mübarizə tədbirlərini aqrotexniki qaydada yerinə yetirdilər. Nəticəsi də göz qabağındadır. Biçin başa çatmaq üzrədir. Buğda sahələrinin hər hektarından 32, arpa sahələrindən isə 25,2 sentner məhsul əldə olunub. Bu da keçən ildəkindən müvafiq qaydada təxminən hər hektardan 4 sentner artıqdır. Biçin zamanı heç bir xoşagəlməz hadisə, yanğın-filan baş verməmişdir. 176 kombaynın hamısı məhsuldar işləyib. Biçinin optimal müddətdə başa çatdırılmasında Cəlilabad Rayon İcra Hakimiyyəti ilə Aqrar İnkişaf Mərkəzinin birlikdə Astanlı kəndində fermerlər və mexanizatorlarla keçirdiyi müşavirənin əhəmiyyəti böyük olmuşdur".

Bolluq həm də ucuzluq deməkdir. Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar bəzi bədgümanlar hesab edirdilər ki, ölkəmizdə taxıl qıtlığı yaranacaq, taxılın və çörəyin qiyməti artacaq. Bir çox işbazlar keçən ilin payızında yüz tonlarla taxıl alıb anbarlara yığdılar ki, baha qiymətə satıb külli miqdarda qazanc əldə edəcəklər. Lakin onların istəkləri ürəklərində qaldı. Dövlətin həyata keçirdiyi tədbirlər nəticəsində ölkədə taxıl istehsalı artdı.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Təbiət "etiraf" edir

### "Mənə güvənməyin"

**Məlum olduğu kimi, iyun ayında ölkəmizdə, xüsusən, regionlarda havalar qeyri-sabit keçmişdir. Bu "qeyri-sabit" sözünün arxasında isə leysan, sel və güclü küləklər dayanır. Nəticədə aqrar sektora ciddi ziyan dəymişdir. Daha doğrusu, təbii fəlakət kəndlinin aylarla əziyyət çəkib yetişdirdiyi, ümidlərini bağladığı məhsulunu zay etmişdir.**

Yeri gəlmişkən qeyd edək ki, Baş nazir Əli Əsədovun sədrliyi ilə bu günlər keçirilmiş müşavirədə sel və daşqınların ölkəyə vurduğu ziyanın miqdarı müzakirə edilmiş və fəsadların aradan qaldırılması yolları araşdırılmışdır. Müşavirədə təbii fəlakət nəticəsində fərdi yaşayış evlərinə, həyətyanı sahələrə, həmçinin əkin sahələrinə və fermer təsərrüfatlarına, eyni zamanda, digər infrastruktura dəymiş ziyanın qiymətləndirilməsi ilə bağlı tədbirlərin davam etdirilməsinin zəruriliyi vurğulanmışdır.

Ümumiyyətlə, təkcə ölkəmizdə deyil, dünyada baş verən iqlim dəyişikliyinin ən çox ziyan vurduğu sahə kənd təsərrüfatıdır. O üzdən dünyada fermerləri əkib-becərməyə təşviq etmək üçün müxtəlif dəstəkləyici üsullardan istifadə olunur. Onlara güzəştli şərtlərlə kreditlər verilir, subsidiya qaydasında dəstək göstərilir, aqrar sığortanın şərtləri yumşaldılır və s.

Ölkəmizdə də kəndliyə müxtəlif növ yardımlar edilir. Onlardan biri də aqrar sığortadır. Amma o da məlumdur ki, bu gün bir çox fermerin aqrar sığortanın tələb olunan məbləğini tam ödəmək imkanı yoxdur. Dövlət bunu nəzərə alaraq aqrar sığortanın 50 faizini öz üzərinə götürür.

Ötən illərin təcrübəsi göstərir ki, bu cür aqrar sığorta kəndlini dəyən ziyandan qoruyan ən etibarlı vasitədir. Odur ki, fermerlərin aqrar sığortaya olan marağı ilbəil artır. Düzdür, hələlik ölkə üzrə aqrar sığortadan istifadə edən təsərrüfatların sayı elə də yüksək deyil. Ancaq artım dinamikası var. Baş verən bu müsbət tendensiya inam yaradır ki, yaxın gələcəkdə aqrar sığortanın əhatə sahəsi və coğrafiyası daha da genişlənəcək.

Əslində, havaların son vaxtlar, qeyd etdiyimiz kimi, normadan artıq yağmurlu keçməsi nəticəsində əkin sahələrinə dəyən ziyan kəndliyə başqa seçim də qoymur. Rəsmi məlumatlara görə, iyun ayının 11-24-də ayrı-ayrı bölgələrdə güclü yağış yağıb. Eləcə də ölkədə dolu yağması halları 2 dəfədən çox artıb - təkcə iyun ayında 38 dəfə dolu düşüb, halbuki ötən il bu göstərici 18 gün olmuşdu. Həmin ayda həmçinin 55 sel hadisəsi qeydə alınıb ki, bu da rekord göstəricidir. İyunun son günləri, xüsusilə, İsmayıllı, Tərtər, Goranboy, Daşkəsən, Şamaxı rayonlarında əkin sahələrinə və təsərrüfatlara, eləcə də heyvandarlıq və arıçılıq təsərrüfatlarına daha çox zərər dəyib.



Baş verən hadisələrlə bağlı Aqrar Sığorta Fondu bəyan edib ki, təbii fəlakətlər - dolu, leysan yağışları, sel-subasma kimi hadisələr aqrar sığorta tərəfindən qarşılanır. Bu hallar nəticəsində zərərgörmüş sığortalı təsərrüfatlara kompensasiya ödəniləcək. Aqrar Sığorta Fondu sığortası olan fermer və təsərrüfat rəhbərlərini əkin sahələrinə və təsərrüfatlara baxış keçirməyə, dəymiş zərər barədə fonda məlumat verməyə çağırıb. Fond bir daha fermerə və təsərrüfat rəhbərlərinə öz təsərrüfatlarını baş verəcək risklərdən qorumaq üçün aqrar sığorta vasitəsilə sığortalanmağı tövsiyə edir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Qazaxda küçə və məhəllələr abadlaşdırılır

**Son illər regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası çərçivəsində bölgələrdə genişmiqyaslı quruculuq işləri həyata keçirilir. Bu baxımdan Qazax da istisna deyil.**



Hazırda şəhərin içməli su və tullantı su sistemlərinin yenidən qurulması layihəsinin icrası zamanı qazılmış prospekt və küçələr asfaltlanır. Artıq Heydər Əliyev prospekti və bir çox küçələrdə asfaltlanma işləri yekunlaşmışdır. Bundan başqa, şəhərdəki 40-dan çox çoxmənzilli yaşayış binasının həyətində abadlıq işləri aparılmışdır.

Abadlıq-quruculuq işləri davam edir. Şəhərin küçələrində, eləcə də çoxmənzilli yaşayış binalarının həyətlərində səliqə-sahman yaradılır, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini və vətəndaşların rahatlığını təmin etmək üçün bir sıra işlər görülür.

*"Azərbaycan"*

## "Talış kəndinin təbiəti arıçılığın inkişafı üçün əlverişlidir"

**İşğaldan azad olunmuş ərazilərimizə Böyük qayıdış proqramı üzrə görülən işlər çərçivəsində Tərtər rayonunun Talış kəndində sakinlərin məşğulluğunun təminatı diqqət mərkəzindədir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən kənd sakinləri özünüməşğulluq proqramına cəlb edilib. Verilmiş aktivlər hesabına 7 nəfər maldarlıq, 1 nəfər arıçılıq üzrə təsərrüfatlarını yaradıblar. Daha bir kənd sakini isə qəssablıq fəaliyyət istiqamətləri üzrə aktivlərlə təmin edilib. Ümumilikdə kənd sakinlərindən 44 nəfər agentlik tərəfindən aktiv məşğulluq proqramları ilə əhatə olunub.

AZƏRTAC-ın bölgə müxbiri Talış kəndində özünüməşğulluq proqramı çərçivəsində yaradılan arıçılıq təsərrüfatının fəaliyyəti ilə maraqlanıb.



Kənd sakini Əyyub Əkbərov arıçılığın maraqlı sahə olduğunu qeyd edərək, təsərrüfatı genişləndirməyi qarşıya məqsəd qoyduqlarını bildirib. "Dövlət Məşğulluq Agentliyi tərəfindən bizə 20 arı ailəsi verilib. Talış kəndinin təbiəti arıçılığın inkişafı üçün əlverişlidir. Kənd ərazisində müxtəlif balverən bitkilər çoxluq təşkil edir. Hazırda arılar işləyir, təbiətdən nektar toplayırlar. İnanırıq ki, arıçılıqdan yaxşı nəticələr əldə edəcəyik. Fikrimiz təsərrüfatı genişləndirməkdir", - deyə Talış sakini bildirib.





# Mədəniyyət





● Ədəbiyyat xadimlərimiz

**Daha çox Abdulla Sur təxəllüsü ilə tanınmış pedaqoq, ədəbiyyatşünas, tənqidçi, jurnalist Mirzə Abdulla Məhəmmədzadə 1883-cü il iyulun 23-də Gəncədə dünyaya gəlib. Gəncə şəhərindəki Xeyriyyə məktəbində təhsil alıb. Həmin məktəbdə dünyəvi elmləri, eləcə də ərəb və fars dillərini öyrənib. Hafizəsi güclü, oxumağa marağı sonsuz idi. Bu cəhətlərinə görə ilk vaxtlardan şagird yoldaşları arasında seçildi, fərqləndi.**



## Cəmi 29 il yaşadı

### Amma dövrünün seçilən pedaqoq, ədəbiyyatşünas və jurnalisti oldu

Pedaqoji fəaliyyətə də təhsil aldığı məktəbdə başladı. Soydaşlarının çoxu savadsız, cahil olduğu bir zamanda dövrünün əksər qabaqcıl, mütərəqqi fikirli ziyalısı kimi o da millətin, vətənin tərəqqisini ilk növbədə maarifin inkişafında gördü. Odur ki, dərs deməyi, savad öyrətməyi çox sevirdi. Ömrünün sonunadək də qəlbində bu sevgiyə yer oldu. Abdulla Sur yazırdı: "Müəllimlikdən bezmədim. Bu, mənim ən sevimli əməlimdir. Nasıl ondan bezərim, nifrət edərim Əsla!"

Bu millətpərvər gənc də dövrünün digər ziyalıları kimi zamanın tələblərini dərindən duyurdu. Bir tərəfdən də XX əsr yeni ab-hava ilə gəlmişdi. Gərgin ictimai-siyasi hadisələr bir-birini əvəz edirdi. Rusiyada və onun müstəmləkəsi altında olan əyalətlərdə, həmçinin Azərbaycanda baş verən mühüm hadisələr ziyalıları ruhlandırır, daha məsuliyyətli, daha inadkar olmağa və böyük işlər görməyə sövq edirdi.

Həlli vacib olan məsələlərdən biri də yeni mətbu orqanı yaratmaq idi. Çünki fikirlərini bəyan etmək, xalqı oyatmaq, ona doğru yol göstərmək üçün Azərbaycan ziyalılarının mətbuat kimi geniş kütlələrə xitab edə bilən tribunaya ehtiyacları var idi. Elə həmin vaxtlarda nəhayət, Məhəmmədağa Şahtaxtlı yeni qəzet açmaq üçün Çar Senzura İdarəsinə ünvanladığı müraciətinə müsbət cavab aldı. 1903-cü il martın 30-da Tiflisdə ana dilində "Şərqi-rus" adlı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi qəzetin ilk sayı işıq üzü gördü. Baş redaktor qəzetin ətrafına savadlı ziyalıları toplamağa başladı. Məhəmmədağa Şahtaxtlının dəvət etdiyi ziyalılardan biri də Abdulla Sur oldu.

Belə bir zamanda Abdulla Sur müəllimlik etməklə kifayətlənə bilməzdi. Odur ki, M.Şahtaxtlının dəvətini böyük məmnuniyyətlə qəbul etdi və Tiflisə getdi. Bir müddət həmin mətbu orqanda çalışdı. "Şərqi-rus" qəzetinin hər sayında məqalələri dərc olundu.

Böyük çətinliklərlə fəaliyyətinə icazə alınmış qəzetin nəşrini davam etdirmək asan olmadı. Maddi problemlər və çar senzurasının təzyiqləri "Şərqi-rus"u uzunömürlü olmağa qoymadı. 1905-ci il yanvarın 15-də qəzetin son sayı oxuculara təqdim olundu. "Şərqi-rus" bağlandıqdan sonra Abdulla Sur Gəncəyə qayıtdı. Maarifçilik işini davam etdirdi, yenə də müəllimliklə məşğul oldu. "Şərqi-rus" qəzetindən başlanan jurnalistlik fəaliyyətindən də heç zaman uzaqlaşmadı. Dövrün vacib, mühüm məsələlərindən bəhs edən məqalələri mətbu orqanlarda dərc edildi.

Onun bitib-tükənməz arzuları arasında təhsilini davam etdirmək də vardı. Ancaq maddi vəziyyəti arzusunu reallaşdırmaqda çətinliklər yaradırdı. Xeyirxah, maarifpərvər şəxslərin ona bu məsələdə öz kömək əllərini uzatdıqlarını Abdulla Məhəmmədzadə Gəncəli imzası ilə "İrşad" qəzetinin 1 mart 1906-cı il tarixli sayında dərc olunan "Təşəkkür" başlıqlı məqaləsində belə bildirdi: "Mühərrir həzrətləri!

Mənim bu məktubuma ruznamənizdə yer verməniz rica edirəm:

Gəncənin mötəbər və hörmətli tacirlərindən Hacı Məhəmmədhəsən Rəfiyev Həzrətləri bana ayda on beş manat məişət xərci verərək bəni ikmali-təhsil üçün İstanbula göndəriyor. Yol məsarifim də bu cənabın öhdəsindədir. Bundan başqa, ildə yüz manat da andlı dava vəkili Əliəsgər bəy Xasməhəmmədov cənabları vəd etdi. Təhsil müddətində olası məxaricimin kəsrini də cavan tanış və yoldaşlarım üzərlərinə götürürlər. Bunlar bir vəqt məyinəyə qədər olacaq. Rəfiyev həzrətləri ilə Xasməhəmmədov cənablarınınkı isə müddət-təhsilim qədər davam edəcəkdir.

İndi bunların cümləsinə qarşı ən səmimülqəlb təşəkkürlər ediyorum... Sağ olsunlar böylə ehsan sahibləri!.. Yaşasın böylə müsəlmanlar".

İstanbula 1906-cı il martın 6-da getdi. Darülfunun (universitetin) Ədəbiyyat-tarix fakültəsinə daxil oldu. İstanbulda təhsil aldığı illərdə böyük maddi sıxıntı çəkdi. Amma çətinliklər onu oxuyub öyrənmək arzusundan döndərə bilmədi. Vaxtının çoxunu kitabxanalarda keçirdi. Türk ədəbiyyatına dair materiallar oxudu. Daha çox ədəbiyyatşünaslıqla bağlı məqalələr yazmağa başladı. İstanbulda nəşr olunan qəzetlərdə araşdırma məqalələri dərc edildi. Azərbaycanda işıq üzü görən mətbu orqanları da yaddan çıxarmadı, ardıcıl olaraq yazılar göndərdi. 1908-ci ilin noyabrınadək İstanbulda yaşadı. Təhsilini başa vurduqdan sonra Gəncəyə döndü. Gəncə ruhani seminariyasında ana dili və tarix müəllimi işlədi. Bununla bərabər, İstanbulda yazmağa başladığı türk ədəbiyyatının yaranması və inkişafından bəhs edən "Türk ədəbiyyatına bir nəzər" adlı əsərini bitirdi. Əsəri Ömər Faiq Nemanzadə və Cəlil Məmmədquluzadənin açdıqları "Qeyrət" mətbəəsində çap etdirmək üçün Tiflisə getsə də, bəzi səbəblərdən məqsədinə çata bilmədi. Bu dəyərli əsərin əlyazmasının xeyli hissəsi müəllifin vəfatından sonra itib-batdı.

Abdulla Sur 1910-cu ildə istedadlı gəncləri üzə çıxarmaq, təhsil almalarına kömək etmək məqsədilə Gəncədə "Ədəbiyyat və Sənət" cəmiyyəti yaratdı. Amma jurnalistlik fəaliyyətini ömrünün sonlarınadək böyük həvəslə davam etdirdi, "Həyat", "İrşad", "Füyuzat", "Tərəqqi", "Həqiqət", "Məktəb" və başqa mətbu orqanlarda məqalələri dərc olundu. O, ayrı-ayrı mətbuat orqanlarında Abdulla Sur, Məhəmmədzadə, Qafqasiyalı, A.Tofiq, Gəncəli, Abdulla Məhəmmədzadə, Bir Adam və başqa imzalarla yazdığı məqalələrində maarif və mədəniyyət məsələlərinə diqqət çəkir, xalqı cəhalətdən, səfalətdən qurtulmağa səsləyir, bu yolda maneə yaradanları tənqid edirdi. İslam dini, ədəbiyyat məsələləri də daimi mövzuları sırasında idi. Abdulla Sur məqalələrində dil məsələsinə də geniş yer verirdi. O, Tofiq Fikrət, Məhəmməd Hadi, Əbdülhaq Hamid kimi şair və yazıçıların əsərlərində ərəb və fars sözlərinin çoxluğunu, dillərinin ağırlığını tənqid edirdi.

Gənc yaşlarından maarifpərvərliyi, istedadı, vətənsevərliyi ilə tanınan Abdulla Surun xəstəliyə tutulması xəbəri hər kəsi sarsıtdı. O, 1912-ci ildə müalicə üçün Tiflisə getdi. İki ayadək xəstəxanada qaldı. Həkimlərin səyi fayda vermədi. Abdulla Sur mayın 8-də Tiflisdə xəstəxanada gözlərini əbədi yumdu. Son mənzili Gəncədəki Səbiskar qəbiristanlığı oldu.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Maarifçi qadınlarımız

## Tanınan soyadın tanınmayan nümayəndəsi



**Dövlət Tarix Arxivində Aleksandrinski qadın rus-müsəlman məktəbinin məzunu, dövrünün tanınmış qadın pedaqoqlarından sayılan Qumru xanım Molla Məhəmməd qızı Nərimanovanın həyat və pedaqoji fəaliyyəti haqqında xeyli sənədlər qorunub saxlanılır. Arxivin "Bakı - Dağıstan xalq məktəblərinin rəhbərliyi" adlı 309 saylı fondunda bu maarifçi xanımın şəxsi işi mövcuddur.**



Q.Nərimanova Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimi N.Nərimanovun əmisi Molla Əlimirzənin nəvəsidir. Azərbaycanın bir sıra digər qadın pedaqoqları kimi Qumru xanımın da həyat və pedaqoji fəaliyyəti demək olar ki, indiyə qədər kifayət qədər öyrənilməmişdir. Doğrudur, tarix elmləri doktoru Sabir Gəncəlinin vaxtilə işləyib hazırladığı və 2001-ci ildə "Azərbaycan" nəşriyyatında işıq üzü görmüş "Qadın, Gözəllik və Ülviyyət" adlı ensiklopedik toplunun "Nərimanovlar soyadının davamçıları" adlı bölməsində Q.Nərimanova haqqında müəyyən məlumatlar qeyd edilmişdir. Lakin XX əsrin əvvəllərində fəaliyyət göstərmiş bir sıra digər qadın pedaqoqlar kimi bu xanım haqqında da cəmiyyətimizdə demək olar ki, kifayət qədər məlumat yoxdur. İndiyədək dərc olunmuş ensiklopediyalarda və ya digər kütləvi nəşrlərdə onun adına rast gəlinmir. Halbuki Qumru xanım Nərimanovanın pedaqoq olaraq Azərbaycanda qadın və qızların məktəbə cəlb edilməsində, onların savadlanmasında, savadsızlığın aradan qaldırılmasında, eləcə də mədəni-maarif işinin inkişafında rolu və xidmətləri olmuşdur. Qumru xanım ömür yoldaşı ilə birlikdə Bakıda və İmişlidə yaşadıqları zaman bir sıra orta məktəblərdə pedaqoji fəaliyyətini davam etdirmişdir. O, ömrünün yarım əsrdən artıq bir dövrünü mədəni-maarif işi ilə məşğul olmuş, hətta "Lenin" ordeninə layiq görülmüşdür.

Arxiv materiallarını araşdırarkən Qumru xanım Nərimanovanın həyatı və pedaqoji fəaliyyəti haqqında müəyyən sənədlər aşkar edilmişdir. Qumru xanım 1892-ci il noyabrın 3-də Tiflisdə anadan olmuşdur. Bakı Şəhər Duması nəzdindəki Məktəb Komissiyası sədrinin Bakı Quberniyası və Dağıstan Vilayətinin Xalq Məktəblərinin direktoru A.S.Tixorjevskiyə ünvanladığı 3 yanvar 1912-ci il tarixli məktubda bildirilirdi ki, məktəb komissiyası özünün 19 dekabr 1912-ci il tarixli iclasında I şəhər qadın rus-tatar məktəbində müəllimə vəzifəsinə Qumru xanım Nərimanovanı seçmişdir. Həmin məktubda müəyyən məlumatlar da təqdim edilirdi: "Milliyyətcə tatarkadır (yəni azərbaycanlı qızdır - R.S.), şiə məzhəblidir, 20 yaşı var, 1908-ci ildə Bakı Aleksandrinski qadın rus-müsəlman məktəbinin təlim kursunu bitirmişdir. Kladbişenskoy və Pozenovskoy küçələrinin tinindəki Cəfərovların 10 nömrəli evində yaşayır".

Digər arxiv sənədində göstərilirdi ki, Qumru xanım Nərimanova 18 fevral 1915-ci ildə Bakı şəhərində Xalq məktəblərinin Bakı-Dağıstan Direksiyasının 2-ci rayonu üzrə müfəttişi S.M.Qəniyevə ərizə ilə müraciət edərək ailə vəziyyətindəki dəyişiklik haqqında məlumat təqdim etmişdir. Bildirirdi ki, 1915-ci il fevralın 5-də Şuşa şəhər sakini Həbib Kərbəlayi Əli oğlu Kərimovla qanuni nikaha daxil olub. O, taleyini Almaniyada ali mühəndis təhsili almış görkəmli mütəxəssis Həbib Kərimovla bağlamışdır. Həbib bəy Azərbaycanda süd-pendir müəssisələrinin əsasının qoyulmasında və inkişafında böyük rol oynamışdır. Qumru xanım da ömür yoldaşı ilə birlikdə Bakıda, İmişlidə yaşadıqları illərdə xalq maarifi işində çalışmış, bir sıra orta məktəblərdə Azərbaycan dilindən dərs demişdir. Onların bu nikahdan 1915-ci il avqustun 13-də Murad adlı oğlu dünyaya gəlmişdi.

Qumru xanım Nərimanova H.Z.Tağıyevin rus-müsəlman qız məktəbinin bir qrup tanınmış müəllimələri, o cümlədən Hənifə xanım Məlikova, Məryəm xanım Sulkeviç, Asiya Nərimanova, Minə Rəhimova, Ayna Musabəyova və başqaları ilə birgə pedaqoji fəaliyyət göstərmişlər. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanda milli ziyalı qadın elitasının yaranmasında, maarifçilik tariximizdə dünyəvi qadın təhsilinin inkişafında H.Z.Tağıyevin təşkil etdiyi ilk müsəlman qız məktəbinin böyük xidmətləri danılmazdır. Bu məktəbi bitirmiş onlarla azərbaycanlı qız sonrakı dövrlərdə xalqımızın mədəni tərəqqisində, o cümlədən Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasətinin həyata keçirilməsində yaxından iştirak etmişdir. Keçmiş Rusiya İmperiyasında müsəlman qızlar üçün ilk dəfə olaraq Hacı Zeynalabdin Tağıyev tərəfindən Bakıda açılmış məktəbin fəaliyyəti 1918-ci ilin martında daşnak-bolşevik dəstələri tərəfindən azəbaycanlılara qarşı törədilmiş soyqırımı zamanı dağıdılmışdır. Cümhuriyyət dövründə də bu məktəbi bərpa etmək mümkün olmamışdı. Lakin bütün bunlara baxmayaraq, danılmaz bir faktdır ki, XX əsrin əvvəllərində yetişən ziyalı azərbaycanlı qadınların böyük əksəriyyəti bu məktəbin pedaqoqları və məzunları idilər. Ölkəmizdə qızların və qadınların məktəbə, təhsilə cəlb edilməsində qadın təhsilinin inkişafında rolu və iştirakı olmuş maarif fədailərinin, o cümlədən Qumru xanım Nərimanovanın da xidmətləri xalqımız tərəfindən unudulmur, böyük hörmət və ehtiramla yad edilir. Qumru xanım ictimai-mədəni həyatda da fəal olmuş, dəfələrlə Bakı şəhər Sovetinə deputat seçilmişdir.

*Rafiq SƏFƏROV,*
*Milli Arxiv İdarəsinin baş məsləhətçisi*

● İstirahət məkanlarımız

## Turistlər ölkəmizə gəlməkdən məmnundurlar

### Xüsusən də yay aylarında

**Turizm həvəskarları üçün Azərbaycanda ilin bütün fəsilləri maraqlıdır. Amma təbii ki, yay fəslinin öz gözəlliyi var. Bəlkə buna görədir ki, hər il yay aylarında ölkəmizə gələn xarici turistlərin sayında kəskin artım müşahidə olunur.**




Onlar tarixi abidələri seyr etmək, muzey və sərgilərdə olmaqdan zövq almaqla, Xəzərin mirvari boyunbağısı adlandırılan Bakı bulvarında gəzintidə olmaqdan, Novxanı, Buzovna və Şıxov çimərliklərində dincəlməkdən ləzzət alırlar. Buna görə cari ilin əvvəlindən, daha doğrusu, martda keçirdiyimiz Novruz bayramından bu yana Azərbaycana dünyanın 179 ölkəsindən 1 milyon 603 mindən çox əcnəbi və vətəndaşlığı olmayan qonaq gəlib. Bu sırada Rusiya, Çin, İsrail, Hindistan, Pakistan, Səudiyyə Ərəbistanı və Orta Asiya ölkələrindən gələnlər çoxluq təşkil edir. Bu barədə İsrail Dövlətinin xarici işlər naziri, Birgə Komissiyanın həmsədri Eli Kohen cari il aprelin 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qəbulunda olarkən bildirib. Azərbaycana geniş nümayəndə heyəti ilə səfər edən İsrailin xarici işlər naziri turizm sahəsində əlaqələrə toxunaraq ölkəsindən Azərbaycana gələn turistlərin sayının artmaqda olduğunu qeyd edib.

Ekspertlərin fikrincə, turistlərin sayında artımın olması həm də Azərbaycanda keçirilən beynəlxalq tədbirlərin, "Formula-1" kimi maraqlı idman yarışlarının, mədəniyyət və incəsənət ustalarının konsertləri ilə bağlıdır. Çünki turistlər gəzintidə olduqları müddətdə bu kimi tədbirlərə vaxt ayırmağa xüsusi üstünlük verirlər.

Quba və Qusar rayon Turizm İnformasiya mərkəzlərindən aldığımız məlumata görə, əvvəlki illərdən fərqli olaraq bu il Qubaya turistlərin gəlişində daha çox artım müşahidə olunub. Şimal bölgəsinin əsas turizm mərkəzlərindən biri olan Qusar, onun kənd və qəsəbələrinə yerli və xarici turist sayında da xeyli artım var. Rayona Rusiya, Dağıstan, Qazaxıstan və Özbəkistandan gələn qonaqlar çoxluq təşkil edir. Avaran kənd sakini Şahlar Səfərov deyir ki, bu yerlərə bir dəfə gələn əcnəbi turistlər növbəti illərdə də Qusarı seçirlər. Onu da bildirək ki, havalar istilənəndən Xəzər sahilinə - Nabrana istirahətə gələnlər daha çoxdur.

Məlumdur ki, Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyası ölkəmizdə həyata keçirilən turizm siyasətini dəstəkləyir və Azərbaycanda sağlamlıq turizminin daha da inkişaf etdirilməsinə töhfə vermək üçün əlindən gələni edir. Xatırladaq ki, Azərbaycan 10 ildən artıqdır ki, Dünya Sağlamlıq Turizmi Təşkilatında (Global Helathcare Travel Council - GHTC) təmsil olunur. 2014-cü ildən isə təşkilatın idarə heyətində fəaliyyət göstərir. Məqsəd GHTC-nin geniş imkanlarından istifadə edərək ölkəmizə turist axınına səbəb olacaq fəaliyyətləri gücləndirmək, ekspert xidmətləri və investisiya imkanlarını dəyərləndirməkdən ibarətdir.

Günün qızmar çağlarında təbii olaraq turistlər təbiətin seyrinə çıxmağı, çəmənlikdə, çay kənarında, meşədə, ağac kölgəsində, bulaq başında dincəlməyə üstünlük verirlər. Qonaqların böyük həvəslə üz tutduqları belə ünvanlardan biri də 2020-ci ilin noyabrında 29 illik işğaldan azad edilən Şuşa şəhəridir. Xatırladaq ki, Qarabağın başının tacı olan qədim Şuşa erməni əsirliyindən azad ediləndən sonra burada dövlət səviyyəsində bərpa-quruculuq işləri aparılır, yeni turizm marşrutları açılır. Artıq Şuşaya Dövlət Turizm Agentliyi tərəfindən ayrı-ayrı layihələr formatında turizm səfərlərinə də başlanılıb. İki və üç günlük turlarda turistlərə Cıdır düzü, "Vaqif" məqbərəsi, Mehmandarovların evi, Bülbülün ev-muzeyi, Yuxarı Gövhər ağa məscidi, "Güllələnmiş Heykəllər" meydançası, Şuşa qalası, Şuşanın "Gəncə" qapıları və "Xarıbülbül" simvolu, "Qazançı" kilsəsi, Şuşa "Realnıy" məktəbi kimi tarixi abidələrlə tanışlıq imkanı təqdim olunur.

Azərbaycanın təkrarsız turizm bölgələrindən biri də Kəlbəcərdir. 30 illik işğaldan sonra azadlığa çıxan Kəlbəcərdə bərpa-quruculuq işləri tamamlandıqdan sonra rayon yenidən öz turizm şöhrətini bərpa edəcək və yenidən nəinki yerli, həm də xarici turistlərin ən çox üz tutduqları məkanlardan biri olacaq. Kəlbəcər möhtəşəm təbiəti, əlverişli relyefi, tarixi abidələri, mineral suları ilə məşhurdur. Ekspertlərin fikrincə, Kəlbəcərdə elə mineral su yataqları var ki, onlar bir çox xəstəliklərin müalicəsində istifadə üçün çox faydalıdır. 44 günlük Vətən müharibəsində erməni işğalından azad edilən Kəlbəcərdə bu gün həyata keçirilən bərpa işləri çərçivəsində turizm infrastrukturu da yaradılır, o sırada beynəlxalq hava limanı tikilir. Təbii ki, bütün bunlar reallaşdıqdan sonra Kəlbəcər yenidən turistlərin sevimli ünvanına çevriləcək.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● Xəbər

## Akademik Milli Dram Teatrı 150-ci teatr mövsümünü "Qarabağnamə" tamaşası ilə başa vurub

**Teatrın bədii rəhbəri, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə və teatrın direktor əvəzi, Əməkdar mədəniyyət işçisi İlham Əsgərov yaradıcı heyətlə görüşüb, məzuniyyətə yollanan truppa üzvlərinə xoş istirahətlər arzulayıblar. Qeyd olunub ki, yeni mövsümdə - ilin sonunadək Akademik Milli Dram Teatrında üç yeni tamaşanın premyerası keçiriləcək.**




Yeni yaradıcılıq işləri Çingiz Aytmatovun "Əsrə bərabər gün", Şıxəli Qurbanovun "Sənsiz" və Xalq yazıçısı Anarın "Dantenin yubileyi" əsərləridir. 2024-cü ildən isə kollektiv dünya və Azərbaycan dramaturgiyasının ən maraqlı nümunələri ilə tamaşaçıların görüşünə gələcək.

"Qarabağnamə" tamaşası Xalq yazıçısı, görkəmli dramaturq İlyas Əfəndiyevin "Hökmdar və qızı" əsəri əsasında hazırlanıb. Tamaşanın rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı İsmayıl Məmmədovdur. Səhnə əsərində XVIII əsrdə Qarabağ xanlığının mərkəzi olan Şuşada baş vermiş tarixi hadisələrdən və Qarabağ hökmdarı İbrahim xanın ictimai-siyasi, ailə-məişət həyatından bəhs edir.

Qeyd edək ki, İlyas Əfəndiyevin "Hökmdar və qızı" əsəri əsasında tamaşa ilk dəfə 1996-cı ildə nümayiş olunub. Tamaşa böyük müvəffəqiyyət qazanıb və 1997-ci il sentyabrın 20-də Ümummilli Lider Heydər Əliyev Akademik Milli Dram Teatrının səhnəsində tamaşanı maraqla izləyib.

# Fransadakı etirazlar Avropa miqyasında təhlükə yaradır



Fransada baş verən hadisələr Emmanuel Makron siyasətinin tam iflasa uğramasının və ölkədəki dərin böhranın nəticəsidir. Əlcəzairli yeniyetmənin polis tərəfindən vəhşicəsinə və soyuqqanlı şəkildə öldürülməsi bu dövlətin öz vətəndaşlarına olan münasibətini göstərir. Makron hakimiyyətinin demokratiya və tolerantlıq kimi dəyərləri artıq unutduğuna şübhə yoxdur.









Qeyd edək ki, bu ölkədə aparılan araşdırma, şəxsiyyəti təsdiq edən sənədlərin yoxlanılması üçün polisin qaradərili və ya ərəbəsilli gəncləri dayandırmaq ehtimalının iyirmi dəfə çox olduğunu göstərib.

Təkcə 2022-ci ildə polis onlardan 13 nəfəri güllələyərək öldürüb. Hakimiyyət qurbanların irqi və etnik mənşəyini açıqlamır. Qrenobl Universitetinin sosioloqu Sebastyan Roş deyir ki, polis məmurlarına tabe olmaqdan imtina etdiyi üçün öldürülənlər arasında etnik azlıqların nümayəndələrinin sayı xeyli coxdur.

Fransada baş verən iğtişaşların BMT-nin İnsan Haqları İdarəsinin diqqət obyektinə çevrilməsi problemin təhlükəli miqyasını sübut edir. Təşkilatdan bildirilib ki, bu, Fransanın hüquq-mühafizə orqanlarında irqçilik və ayrı-seçkiliyin dərin problemlərini ciddi şəkildə həll etmək üçün məqamdır.

"Cluster 17" sosioloji institutunun məlumatına görə, 2022-ci il prezident seçkilərində Fransa polisinin təxminən 64 faizi ifrat sağçı namizədlər Marin Le Pen və Erik Zemmura səs verib.

Ümumiyyətlə, Fransada uzun müddətdir islamofob əhvali-ruhiyyəsi üstünlük təşkil edir. Bunlar adi sözlər deyil, Fransa dövlətinin reallığıdır. Heç bir silahı olmayan və müqavimət göstərməyən əlcəzairəsilli yeniyetmənin Fransa polisi tərəfindən vəhşicəsinə qətlə yetirilməsi, həm də bu ölkənin yeni müstəmləkəçilik siyasətinin növbəti nümunəsidir.

Britaniyalı jurnalist Nil Uotson caliber.az-a şərhlərində Fransada baş verən hadisələrdən danışaraq qeyd edib ki, istənilən ziyarətçi ölkədə ikisəviyyəli cəmiyyətin olduğunu dərhal anlayır. Bu cəmiyyətdə məğriblilər (Şimali Afrikada yerləşən ölkələrin sakinləri) dövlət səviyyəsində ayrı-seçkiliyə məruz qalırlar və Fransa əhalisinin böyük hissəsi ilə az əlaqə saxlayırlar.

Uotson hesab edir ki, islamofobiya Fransa cəmiyyətində dərin kök salıb və əslində, bu, Prezident Emmanuel Makrona kömək edir. Bunu anlamaq üçün son prezident seçkilərində ifrat sağçı Milli Birlik partiyasının güclənməsinə diqqət yetirmək kifayətdir.

Britaniyalı ekspertin dediyinə əsasən, islamofobiya seçki hüququndan istifadə edən Fransa əhalisi üçün olduqca məqbuldur. Məğriblilərin əksəriyyəti özünü hüquqsuz hiss edir və səs vermirlər. Ermənilər Fransa siyasətində, mediasında və biznesində kök salıblar. Onların türkofob mövqeyi Fransada ümumi qəbul edilmiş narrativdir və bu, Azərbaycana da aiddir.

ABŞ-nin Azərbaycandakı keçmiş səfiri Mətyu Brayza qeyd edib ki, Makron birmənalı şəkildə türklərə qarşıdır. Bu, 2020-ci ilin yayında Yunanıstan və Türkiyə arasında gərginliyin yarandığı vaxt özünü aydın büruzə verib.

Amerikalı diplomat Türkiyənin Aİ-yə daxil olub-olmaması ilə bağlı müzakirələr kontekstində Fransanın 20-ci prezidenti Valeri Jiskar d'Estenin "Avropa mədəniyyəti xristianlıq üzərində qurulub" ifadəsini xatırladıb və deyib: "Hesab edirəm ki, Makron da oxşar təfəkkür sahibidir".

Fransız sosioloq Mişel Kokoref ölkədə baş verənləri təhlil edərək ABŞ-də afroamerikalı Corc Floydun qətli ilə paralel aparır: "Eyni səbəblər eyni nəticələr verir. Yoxsulluq, işsizlik, gələcəyə inamsızlıq, məktəbə və təhsilə getməkdən imtina struktur səbəblərdir. Bunların üzərinə isə etno-irqi səbəblər, islamofobiya, hər cür ayrı-seçkilik, o cümlədən yerli-yersiz sənəd yoxlamaları və s. əlavə olunur".

Hüquq-mühafizə orqanlarının əməkdaşları ilə Fransanın afrikaəsilli və müsəlman vətəndaşları arasında qarşıdurma hər gün şiddətlənir. Jandarmlar artıq onlarla zirehli texnikanı şəhərlərin küçələrinə çıxarıblar, etiraz edənlərə qarşı helikopterlər cəlb olunub və polis izdihamı saxlamaq üçün insanlara rezin güllələrdən atəş açır.

Son məlumatlara görə, Fransada iğtişaşlar ümumavropa miqyaslı təhlükəyə çevrilmək riski ilə artıq qonşu Belçika və İsveçrəyə də yayılır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*



## Dünya olduğu kimi

### Yupiterdə ildırım fotoları



**Yupiterdə şimal qütbünün yaxınlığında burulğan və ildırım çaxmasının görüntüsü çəkilib. Fotoları ABŞ Milli Aeronavtika və Kosmik Agentliyi paylaşıb. Kadrlar "Juno" kosmik gəmisindən 2020-ci il dekabrın 30-da qeydə alınsa da, indi dərc olunub.**

NASA qeyd edib ki, Yupiterdə ildırım Yerdəki kimi tərkibində ammonyak-su məhlulu olan buludlarda baş verir və daha çox qütblərin yaxınlığında müşahidə olunur.

Kosmik gəmi planetə yaxınlaşarkən ildırım Yupiterin bulud zirvələrindən təxminən 32 min kilometr yüksəklikdə, 78 dərəcə enliyində çəkilib.

### Dubayın ilk süni zəka mərkəzi

**Dubayın ilk süni zəka mərkəzi istifadəyə verilib. Bu haqda məlumat verən Birləşmiş Ərəb Əmirliklərinin şahzadəsi Həmdan ibn Məhəmməd Əl Məktum bildirib ki, süni zəka mərkəzi unikal dövlət xidmətlərinin təklif edilməsi üçün istifadəyə verilib.**



Süni zəka əsaslı tətbiqlərin hazırlanması üçün Dubayın bütün dövlət müəssisələrində işçi qruplarının formalaşdırılması təlimatı verilib. Bu tətbiqlər innovasiyalı dövlət layihələrini hazırlamağa və rəqəmsal transformasiyanı reallaşdırmağa imkan verəcək.

Məlumata əsasən, istifadəyə verilmiş mərkəzdə süni zəka sistemləri vasitəsilə dövlət qulluqçularının təlimatlandırılması planlaşdırılır. Bu, dövlət xidmətlərinin yaxşılaşdırılmasına imkan verəcək və dövlət qulluqçularının məhsuldarlığını yüksəldəcək. Mərkəz, həmçinin 20-dən çox yerli və beynəlxalq startapı dəstəkləyəcək.

### 12 min yaşlı fleyta



**Arxeoloqlar İsrailin şimalında yerləşən Ayn Mallahada musiqi aləti aşkar ediblər. Onun 12 min il əvvələ aid fleyta olduğu məlum olub.**

Kiçik su quşlarının sümüklərindən hazırlanmış fleytalar Avrasiya qırğısı və qızılquş kimi yırtıcı quşların səsinə bənzər səs çıxarır.

Bu ərazidə eramızdan əvvəl 13000-9700-cü illərdə Yaxın Şərq sivilizasiyası olan natufianlar yaşayıblar. Onlar bu alətlərdən xüsusi yırtıcıları təqlid etmək üçün istifadə ediblər. Məlumata görə, sümük nə qədər kiçik olsa, imitasiya bir o qədər təbii olub. Bu alətdən daha çox ov zamanı istifadə edilib.

Qeyd etmək lazımdır ki, natufiyalılar quşlara xüsusi simvolik əhəmiyyət veriblər. Bunu Ayn Mallahada tapılan çoxsaylı caynaq ornamentləri də sübut edir.

### İkinci Dünya müharibəsinə aid insan skeletləri tapılıb

**Ukraynada Kaxovka Su-Elektrik Stansiyasının partlaması nəticəsində ətrafdakı ərazilər su altında qalıb.**



Sular çəkildikdən sonra torpağın altından insan skeletləri üzə çıxıb. Mütəxəssislər onların İkinci Dünya müharibəsinə aid olduğunu bildiriblər.

Bununla bağlı videogörüntülər "Telegram" kanalında yayımlanıb. Görüntülərdə insan qalıqlarını, müxtəlif kəllə sümüklərini, hətta kəllələrdən birində müharibə dövrünə aid dəbilqəni belə görmək mümkündür.

### Şimal dənizi bərpaolunan enerji təsərrüfatına çevriləcək



**Almaniya, Belçika, Niderland, Böyük Britaniya, Lüksemburq, Fransa, Norveç, İrlandiya və Danimarka Şimal dənizini nəhəng bərpaolunan enerji təsərrüfatına çevirmək üçün razılığa gəliblər. Bunun üçün dənizdə külək stansiyaları kimi müvafiq infrastrukturlar salınacaq.**

Bu yolla 2030-cu ilə qədər 120 GVt-a qədər, 2050-ci ilə qədər isə 300 GVt-a qədər elektrik enerjisi istehsal ediləcək. Planın həyata keçirilməsi Avropanın enerji müstəqilliyini təmin etməyə kömək edəcək.

### Almaza çevrilən ulduz

**Astronomlar aşkar ediblər ki, Yerdən təxminən 104 işıq ili uzaqlığında yerləşən termonüvə enerji mənbəyinə sahib olmayan elektron-plazma tərkibli ağ cırtdan ulduzu kristallaşaraq planet ölçüsündə olan almaza çevrilir. Bu kəşf ulduzların çoxunun aqibətlərinin necə olduğu barədə mövcud nəzəriyyələri qismən təsdiqləyir. Məlumatlar Avropa Kosmik Agentliyinin "Gaia" teleskopu vasitəsilə əldə edilib.**



Ulduzun yaşının 4,2 milyard il olduğu təxmin edilir. Bir müddət sonra o, bütün hidrogen ehtiyatını yandırıb bitirəndən sonra həyat dövrünün son mərhələsinə çatacaq. Bu mərhələdə termonüvə reaksiyası nəticəsində ulduzun xarici layları aradan qalxır və çox sıx nüvə ortada qalır. Həmin nüvə məhz ağ cırtdan adlanır.

İlkin mərhələdə ağ cırtdanların temperaturları hədsiz dərəcədə yüksək olsa da, tədricən onlar soyuyur və kristallaşmağa başlayırlar. Nəticədə bu ulduzlar soyuq və qara obyektlərə çevrilirlər. Onların tərkibləri isə bu halda almazın tərkibini xatırladır.

Alimlərin sözlərinə görə, bu prosesin yekunlaşması üçün 13,8 milyard ildən daha çox zaman lazımdır. Yəni ağ cırtdanın kristallaşma prosesinin bitməsi üçün Böyük partlayışdan indiyənə kimi keçmiş zamandan daha çox vaxt lazımdır.

### Marsın ilk təbii fotosu

**Avropa Kosmik Agentliyi Marsın minimum filtrə sahib 90 ədəd təsvirindən təşkil edilmiş panoram fotosunu təqdim edib. O, "Mars Express" kosmik stansiyasının fəaliyyətinin 20 illik yubileyinə həsr edilib.**



Fotodan məlum olub ki, Mars bir çox insanın düşündüyü kimi heç də tam olaraq qırmızı planet deyil. Rəsmdə bir çox rəng çalarını görmək olur. Onlardan hər biri Marsın səthi üçün xarakterik olan müəyyən tərkib hissələrini əks etdirir. Məsələn, qara və mavi sahələr vulkanik aktivliyə işarə edir. Vulkanik aktivlik zamanı boz-qara rəngli bazalt qumu planetin səthinə yataraq qara geniş laylar formalaşdırır. Külək isə həmin qumları səth üzrə yayaraq böyük ölçülü qum təpələrini formalaşdırır.

### Şəhərə bənzəyən gəmi

**Çinin ilk böyük səyahət gəmisi dəniz şəhərinə bənzəyəcək. "Adora Magic City" adlı gəminin uzunluğu 323,6 metr, ümumi tutumu 135,5 min tondur. Layner 5245 sərnişin qəbul edəcək.**



Gəmi "Cruise Technology Development Co., Ltd" və "Shanghai Waigaoqiao Shipbuilding Co. Ltd." Şirkətləri tərəfindən birgə layihələndirilib və inşa edilib. Onun içərisində tibb mərkəzi, kinoteatr, idman zalı və basketbol meydançası da daxil olmaqla yaşayış sahələri və əyləncə məkanları olacaq. Gəmi Yaponiya və Cənub-Şərqi Asiya marşrutlarında fəaliyyət göstərəcək.

Səyahət gəmisi 2023-cü ilin sonuna kimi istifadəyə veriləcək.

### "Chevrolet Cruze"in istehsalı dayandırılır

**"Chevrolet" şirkəti 2008-ci ildən istehsal olunan "Chevrolet Cruze" modelinin istehsalını dayandırdığını elan edib. Dünyada iki milyon yarımdan çox olan bu avtomobil Argentinada istehsal olunur.**




Avtomobilin son modelləri bu ilin sonuna qədər konveyerdən çıxacaq. "Chevrolet Cruze" istehsaldan çıxarıldıqdan sonra şirkət "Chevrolet Tracker" krossoverinin istehsalını artıracaq.

Bu qərar alıcıların C sinifli sedan və hetçbeklərdən imtina edərək, krossoverlərə üstünlük verməsi səbəbindən qəbul olunub.

### Məhkumların istehsal edəcəyi avtomobil

**"Vaz" avtomobillərini artıq məhkumlar istehsal edəcək. Bu barədə məlumatı "AvtoVAZ" şirkətinin prezidenti Maksim Sokolov verib.**



M.Sokolov bildirib ki, bu prosesə 100-200 məhbus cəlb olunacaq. Bu addımın atılmağının səbəbi işçi qüvvəsinin çatışmazlığı ilə əlaqədardır.

Şirkətə istehsal həcmini artırmaq üçün əlavə 4000 nəfər lazımdır. "AvtoVAZ" Tolyatti, İjevsk və Sankt-Peterburqda istehsal sahələrinə sahibdir. Ötən il mayın ortalarında Fransanın "Renault" şirkəti "AvtoVAZ"dakı 67,69 faiz payını Rusiya Federasiyasının dövlət mülkiyyətinə keçirib.

Qeyd etmək lazımdır ki, şirkət ötən il 188 mindən çox avtomobil satıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 06.07.2023-cü il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.



## Psixologiya Elmi-Tədqiqat İnstitutu əlavə təhsil (yenidənhazırlanma) almaq üçün tələbə qəbulu elan edir

Psixologiya Elmi-Tədqiqat İnstitutu 2023-2024-cü tədris ilində aşağıdakı ixtisas üzrə yenidənhazırlanma təhsili (ixtisasdəyişmə) almaq üçün tələbə qəbulu elan edir:

**Psixologiya.**

Yenidənhazırlanma təhsili yalnız ödənişli əsaslarla, əyani təhsilalma forması üzrə müəssisə, təşkilat, idarə və ayrı-ayrı vətəndaşlarla Psixologiya Elmi-Tədqiqat İnstitutu hüquqi şəxs arasında bağlanmış fərdi müqavilələr əsasında həyata keçirilir. Yenidənhazırlanma təhsili müvafiq ixtisasda bakalavr və ona bərabər tutulan səviyyə üçün mövcud baza təhsil proqramlarındakı dinləyicilərin əvvəlcə aldığı baza təhsil proqramı ilə yeni ixtisasın baza təhsili proqramı arasındakı fərq (1 tədris ili) nəzərə alınmaqla aparılır. Yenidənhazırlanma təhsili iki semestri əhatə etməklə müvafiq ixtisas üzrə bakalavriaturanın əsas ixtisas fənləri arasında xüsusi hazırlanmış təhsil proqramları əsasında aparılır.

*Yenidənhazırlanma təhsili almaq istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:*

**- Ərizə;**
**- Ali təhsil haqqında sənədin (diplomun və ona əlavənin) notarial qaydada təsdiq olunmuş surəti;**
**- 3x4 sm ölçüdə 4 ədəd fotoşəkil;**
**- Sağlamlıq haqqında arayış;**
**- Şəxsiyyət vəsiqəsinin surəti.**

Xarici ali təhsil müəssisələrinin məzunları aldıqları ixtisasların Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən verilmiş Şəhadətnamə təqdim etməlidirlər.

Sənədlər 2023-cü il iyul ayının 3-dən sentyabr ayının 10-dək (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək PsETİ-nin Əlavə təhsil və innovasiyalar şöbəsində qəbul edilir.

Yenidənhazırlanma təhsili almaq üçün instituta sənəd vermiş şəxslərlə müsabiqə təşkil edilir. Müsabiqəni uğurla keçənlər müqavilə yolu ilə yenidənhazırlanma ixtisası üzrə tələbələr sırasına qəbul edilirlər.

Tədris Azərbaycan dilindədir. Təhsil haqqı müqavilə əsasında ödənilir.

Yenidənhazırlanma təhsili almış şəxslərə müvafiq dövlət sənədinin verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 sentyabr 2010-cu il tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi qaydası" ilə tənzimlənir.

- Məzunlara aldıqları ixtisas üzrə işləmək hüququ verən vahid formalı dövlət sənədi (diplom) verilir.

Qəbul ilə əlaqədar aşağıdakı ünvana və ya elektron poçta müraciət edə bilərsiniz.

**Ünvan: Bakı şəhəri, Ziya Bunyadov pr., 38**
**Tel.: 012/480-36-29**
**Mobil: 055/257-27-00**
**Email: elavetehsil@psixologiyainstitutu.az**



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti balansında olan Zığ və Bibiheybət zavodları üçün müxtəlif ehtiyat hissələrinin satın alınması məqsədi ilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 10 iyul 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047**

***Tender komissiyası***


# Narahatlığa əsas yoxdur

## Alimlər ölkə ərazisində güclü və dağıdıcı zəlzələnin baş verməyəcəyi qənaətindədirlər

Məlum olduğu kimi, iyulun 4-ü saat 00:01-də Xəzər dənizində 5.7 bal gücündə zəlzələ baş verib. Zəlzələ Quba, Xaçmaz, Şabran, Siyəzən rayonlarında 6 bala yaxın, Sumqayıt, Abşeron yarımadası və ona yaxın ərazilərdə 4-5 bala qədər hiss olunub.

Fövqəladə Hallar Nazirliyinin məlumatına əsasən, zəlzələ ilə əlaqədar olaraq dağıntı və tələfat barədə məlumat daxil olmayıb. Daxili İşlər Nazirliyindən də dağıntı, tələfatla bağlı hər hansı məlumat daxil olmadığı bildirilib. Həmçinin hadisə ilə bağlı əlavə qüvvə cəlb edilməklə fasiləsiz xidmət təşkil edilib.

TƏBİB-in məlumatına görə, zəlzələ ilə bağlı Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına 34 nəfər müraciət edib. Müraciət edənlərdən 32 nəfərə yerində yardım göstərilib, 2 nəfər isə aidiyyəti üzrə tibb müəssisəsinə təxliyə olunub. Müraciətlər əsasən arterial təzyiq, stresə qarşı reaksiya, travma, bədənin müxtəlif hissələrində olan ağrılarla bağlı olub.

Azərbaycanda Böyük Qafqazın cənub yamacı, Şamaxı, Quba, Xızı daha aktiv seysmoloji ərazilərdir.

Tarixdən də bəllidir ki, xüsusən Şamaxı rayonunda dəfələlərlə dağıdıcı zəlzələlər baş verib. Məsələn, 1667-ci ildə Şamaxıda zələlə nəticəsində 6-7 min ev dağılıb, 60 minə yaxın insan həlak olub. Eyni zamanda 1806-1902-ci illər ərzində şəhərdə 9 güclü zəlzələ baş verib.

Azərbaycanda hiss olunan sonuncu güclü zəlzələ isə 2000-ci ildə Bakıda qeydə alınıb. 6.8 maqnitudalı zəlzələ nəticəsində bəzi tikililər dağılıb və ziyan dəyib.

Ümumiyyətlə, ölkəmizdə hər gün hissolunmayan yeraltı təkanlar qeydə alınır. Məsələn, ötən il ərzində 12762 yeraltı təkan qeydə alınıb ki, onlardan 2949-u yerli, 4645-i regional, 3776-sı uzaq zəlzələlərdir. 2022-ci ildə baş verən zəlzələlərin ümumilikdə 17-si hiss olunub. Maqnitudası 3-dən yuxarı olan 56 zəlzələ baş verib.

### Xırda yeraltı təkanlar nəticəsində yerin enerjisi çıxır

Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutunun şöbə müdiri, seysmoloq-alim Ənvər Əliyev qəzetimizə açıqlamasında bildirib ki, Bakının əsas iki akvatoriyasından birində - şimal-şərq hissədə zəlzələ baş verib. Onun sözlərinə görə, ikinci seysmik aktiv zona Bakıdan 30 kilometr cənubdan başlayaraq sərhədə qədər davam edir.

Ə.Əliyev qeyd edib ki, Bakı şəhəri tarixən güclü zəlzələlər zonası olmayıb: "Min illər ərzində burada dağıdıcı zəlzələlər qeydə alınmayıb. Əsas faktlardan biri odur ki, Qız qalası kimi abidəmiz əsrlər boyu dağılmayıb. Amma Böyük Qafqazın cənub yamacı seysmik cəhətdən daha aktiv zonadır. Şəkidən başlayaraq şərqə doğru - Şamaxı, Qobustan sahillərinə qədər gələn ərazi 9 ballıq tektonik zonadır. Bu zonada tikililərlə bağlı diqqətli olmaq lazımdır. Fərdi evlərdən tutmuş çoxmərtəbəli binalara qədər hər birinin tikintisində ərazinin seysmikliyi nəzərə alınmalıdır. Bu, bizi gələcək ziyanlardan sığortalayır".

Kiçik Qafqaz zonasının da aktiv hesab olunduğunu deyən alim əlavə edib ki, 1139-cu ildəki Gəncə zəlzələsi buna nümunədir. Bu zəlzələ 100 minlərlə insan itkisinə səbəb olmuşdur. Eyni zamanda 1667-ci il Şamaxı zəlzələsində də təxminən 60 min insanın həlak olduğu qeydə alınıb.

Seysmoloqun sözlərinə görə, Naxçıvanda, Kiçik Qafqazın digər ərazilərində də seysmik aktiv zonalar var. Onlar 7-8 ballıq tektonik zonalardır. "Zəlzələnin zamanı, məkanı bəlli deyil. Paytaxt ərazisində az bal gücündə yeraltı təkanların olmasının bir üstünlüyü odur ki, bu, güclü zəlzələlərin qarşısını alır. Xırda yeraltı təkanlar nəticəsində yerin enerjisi çıxır və dağıdıcı zəlzələlər olmur", - deyə şöbə müdiri əlavə edib.

### Ciddi tələfatlara səbəb olacaq zəlzələlər gözlənilmir

AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru, professor Qurban Yetirmişli ötən gün baş vermiş zəlzələyə dair bildirib ki, zəlzələ ölkə ərazisində şimal rayonları, eləcə də Abşeronun müəyyən hissələri və Bakı şəhəri də daxil olmaqla, müxtəlif dərəcədə hiss olunub: "Xəzər dənizində, 65 kilometr dərinlikdə baş verən təkanın müddəti 10 saniyədən bir az çox çəksə də, təhlükəli deyil. Şimal rayonlarında, həmçinin Abşeron yarımadasında heç bir fəsad, dağıntı olmayıb. Bakı və Abşeron ərazisi ilə bağlı zəlzələ ocaqları Xəzər dənizinin dərinliyində yerləşir. Birmənalı olaraq belə dərinlikdəki dalğanın təsiri yaşayış məntəqələrində fəsadlar törədə bilməz. Qorxulu və ciddi tələfatlara səbəb olacaq yeraltı təkanlar gözlənilmir. Əhaliyə demək istəyirəm ki, şayiələrə inanmasınlar. Güclü yeraltı təkanlar gözlənilmir".

Direktor bildirib ki, zəlzələdən sonra baş verəcək afterşokların həmin gücdə və ya ondan daha güclü olma ehtimalı yoxdur, çünki əsas güc, enerji ilk saniyələrdə ayrılır. "Gecə səhərə kimi zəif bir neçə təkan qeydə alınıb, amma zəlzələ episentrinə ən yaxın yaşayış ərazilərində belə hiss olunmayıb".

Alim həmçinin vurğulayıb ki, 2000-ci il zəlzələsindən sonra Azərbaycanda seysmologiyanın yeni dövrü başlayıb, ölkəyə ən müasir avadanlıqlar gətirilib.

Eyni zamanda o bildirib ki, binalar tikilərkən 8 ballıq zəlzələyə davamlılığı da nəzərə alınır, layihələr buna əsasən hazırlanır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xaçmaz Rayon Şöbəsində əməliyyat keçirilib

Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xaçmaz Rayon Şöbəsində əməliyyat tədbiri keçirib. Qeyd olunan məsələ ilə bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirilib ki, əməliyyat zamanı şöbə rəisi Rahim Ağayev də saxlanılıb.

Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən fakt təsdiq edilib. Bildirilib ki, ətraflı məlumat veriləcək.

# Ölkə ərazisində havanın temperaturu 36 dərəcəyə çatacaq

Azərbaycanda iyulun 5-də gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın, əsasən, yağmursuz olacağı gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 29-34° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 millimetr civə sütunu olacaq. Nisbi rütubət gecə 60-70 faiz, gündüz 40-50 faiz təşkil edəcək.




Abşeron çimərliklərində gözlənilən hava şəraiti: mülayim şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulba) 22-23°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq.

Azərbaycanın rayonlarında hava, əsasən, yağmursuz olacaq. Lakin gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir, ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Mülayim şərq küləyi gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 31-36° isti, dağlarda gecə 10-15°, gündüz 17-22° isti olacaq.








«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


***Vidadi Səftər oğlu Piriyevə Nizami Rayon Hərbi Komissarlığı tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Məşğulluq siyasəti və demoqrafik inkişaf məsələləri şöbəsinin müdir müavini Rəna Abdullayevaya atası

**RAMİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov Fikrət Əzizova qardaşı

**RAMİZ ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əhməd Əhmədzadə Fikrət Əzizova qardaşı

**RAMİZ ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Ali Partiya Məktəbinin 1986-cı il məzunları Ağarəsul Məmmədov, Viktor Əliyev, Bayram Bayramov, Vahid Məmmədov, Sahib Əkbərov və Təhməz Əliyev kurs yoldaşları Fikrət Əzizova qardaşı

**RAMİZ ƏZİZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Cəlilabad rayonu V.Mürsəlov adına Göytəpə şəhər 1 №-li tam orta məktəbin kollektivi məktəbin 1977-ci ildə məzunu olmuş iqtisad elmləri namizədi, dosent

**RAMİZ NƏHMƏD OĞLU ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4493
Sifariş 1657

Qiyməti 40 qəpik